

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

1 iyul
2025-ci il,
çərşənbə axşamı
№ 110 (6937)
Qiyməti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Azərbaycan dünyanın diqqət mərkəzində

Bax səh. 2



## Qanunsuz maliyyələşməyə görə...

### DİN "Sputnik Azərbaycan"da araşdırma aparır

**2025-ci ilin fevralında "Rossiya Seqodnya" İnformasiya Agentliyinin Bakı filialının ("Sputnik Azərbaycan") akkreditasiyası dayandırılsa da, qanunsuz maliyyələşmə əsasında fəaliyyətini davam etdirməsinə dair daxil olmuş əməliyyat məlumatı əsasında Daxili İşlər Nazirliyi (DİN) araşdırmalara başlayıb. Nazirliyin mətbuat xidmətindən "Yeni Azərbaycan"a verilən məlumata görə, iyunun 30-da filialın ofisində əməliyyat-axtarış tədbirləri keçirilib, saxlanılanlar var.**

## Beşinci sosial paketin ikinci mərhələsinə start verildi

### Mina terroru davam edir...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

Belə ki, iyunun 30-da Ağdam rayonunun Papravənd kəndi ərazisində mina hadisəsi baş verib. Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətlərinin birgə məlumatında bildirilib. Ağdam rayon Polis Şöbəsinin əməkdaşı, polis nəfəri xidmət vaxtı rayonunun işğaldan azad edilmiş Papravənd kəndi ərazisində piyadaəleyhinə minaya düşməsi nəticəsində xəsarət alıb. Zərərəçəkmiş şəxsin sağ ayağı topuqdan amputasiya edilib.

**XİN: Mina qurbanlarının sayı 399 nəfərə çatıb**

Hadisəyə Azərbaycanın Xarici İşlər Nazirliyi də...

Bax səh. 4



### Ac və qəzəbli Rusiya... Nə istəyir?

Bax səh. 3

### Azlıqlara qarşı ideoloji səfərbərlik

Son illərdə Rusiyada yaşayan türk və müsəlman xalqların nümayəndələri - o cümlədən azərbaycanlılar, özbəklər, qırğızlar, türkmənlər və tatarlar - sistemli diskriminasiya, şovinist münasibət və islamofob siyasətlə üz-üzədirlər. Rusiya özünü çoxmillətli dövlət kimi təqdim etsə də, mövcud reallıq etnik azlıqlara qarşı ardıcıl və məqsədyönlü ayrı-seçkilik siyasətinin mövcudluğunu göstərir.

Xüsusilə son dövrlərdə azərbaycanlılara qarşı artan mənfi media təsviri, hüquq-mühafizə orqanlarının qərəzli yanaşması, mədəni və iqtisadi sıxışdırma halları bu cəmiyyətin hüquqi bərabərlik və təhlükəsiz yaşayış haqqını ciddi şəkildə pozur.

**Azərbaycanlılara və digər türk xalqlarına qarşı qərəzli münasibət**

Mövcud vəziyyət təsadüfi xarakter daşımır. Bu hadisələrin arxasında dərin tarixi, siyasi və ideoloji köklərə malik sistemli siyasət...

Bax səh. 3

## Cinayətkarlar cəzalandırılmalıdır!

Bax səh. 2

### Azərbaycanın intellektual brendi...

Bax səh. 7

### Yeni vergi güzəştləri

Mədəniyyət sektorunda yeni güzəştlər tətbiq olunacaq

Bax səh. 5

### Qlobal istiləşmə iqtisadiyyata zərər vurur

Bax səh. 6




### Almaniyada partiyalararası çəkişmə...

Bax səh. 7




### Ermənistan nüvə tullantıları təhdidi formalaşdırır

Bax səh. 7

# Azərbaycan dünyanın diqqət mərkəzində

**Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon söhbəti olub. Eyni zamanda, dövlətimizin başçısı İranın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edib. Prezident İlham Əliyev, həmçinin Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın, eləcə də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul edib.**

**Qeyd olunan faktlar ölkəmizin dünya dövlətlərinin diqqət mərkəzində olduğunu təzahür etdirir. Öz gücünə və zəngin potensialına əsaslanmaqla milli maraqlarını qətiyyətlə qoruyan respublikamız çoxvektorlu xarici siyasət həyata keçirir, regional əməkdaşlığın və qlobal həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan beynəlxalq miqyasda yüksək nüfuza malik dövlətə çevrilib.**

## İranla xoş mərama əsaslanan qonşuluq siyasəti



Azərbaycanın İrana xoş mərama əsaslanan qonşuluq siyasəti çoxəsrlik tarixə söykənir. Cari ilin aprel ayında İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlməsi və Prezident İlham Əliyev tərəfindən böyük rəğbətlə, qonaqpərvərliklə qarşılanması ona dəlalət edir ki, hər iki tərəf qonşuluq münasibətlərinin bundan sonra da dərinləşməsində və daha da möhkəmlənməsində maraqlıdır.

Məlumdur ki, son vaxtlarda İran bir sıra çətinliklərlə üzləşib. Respublikamız qonşu dövlət olaraq İranın məruz qaldığı çətinliklərə görə dərin narahatlığını ifadə edib. Əsas məqam ondan ibarətdir ki ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq öz ərazisindən qonşu dövlətlərə qarşı plasdarm kimi istifadə olunmasına imkan vermir. İsrail - İran qarşıdurması zamanı da bu prinsipial mövqe birmənalı şəkildə qorundu. Məsud Pezeşkian ilə telefon söhbəti zamanı dövlətimizin başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar ölkəmizin mövqeyini və regionda vəziyyətin gərginləşməsi ilə bağlı Azərbaycanın narahatlığını bir daha ifadə edib. Prezident İlham Əliyev Məsud Pezeşkianı iyulun əvvəlində Azərbaycanda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Sammitinə bir daha dəvət edib.

Son vaxtlarda yaranan gərginlikdən istifadə edərək Azərbaycanla İran arasında nifaq yaratmaq istəyən qüvvələr də fəallaşıblar. Prezident İlham Əliyev İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edərkən bu məsələyə xüsusi diqqət çəkib. İranla İsrail arasında bu gərginliklə əlaqədar bəzi dairələrin və media təmsilçilərinin Azərbaycan-İran əlaqələrinə xələl gətirmək üçün şayiələr və yalanlara əsaslanan məlumatlar yaydığını deyən Prezident İlham Əliyev bütün bunların tamamilə cəfəngiyyat olduğunu bildirib. Öz növbəsində səfir İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın prinsipial və qəti mövqeyinin İranda yüksək qiymətləndirildiyini vurğulayıb və buna görə də təşəkkürlərini çatdırıb.







## Azərbaycan - Sudan əlaqələri

Azərbaycan qonşu dövlətlərlə olduğu kimi, uzaq coğrafiyalarda yerləşən dövlətlərlə də əlaqələrini genişləndirir. Bu sırada, həmçinin daim dini və mədəni köklərlə bağlı olduğu ərəb ölkələri, o cümlədən Sudan Respublikası da yer alır. Respublikamızla Sudan arasında diplomatik əlaqələr 25 iyul 1992-ci il tarixində yaradılıb.

Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın etimadnaməsini qəbul edərkən dövlətimizin başçısı Azərbaycanla Sudanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Birləşmiş Millətlər Təşkilatında (BMT), İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Qoşulmama Hərəkatında (QH) və digər beynəlxalq təşkilatlarda ölkələrimizin uğurlu əməkdaşlığını vurğulayıb.

Söhbət zamanı səfir sudanlı tələbələrə ölkəmiz tərəfindən təhsil təqaüdünün ayrılmasına görə minnətdarlığını bildirərək, bu təqaüdlərin artırılmasını xahiş edib.

## Aİ ölkələri ilə münasibətlərin dərinləşməsi

Polşa ilə əlaqələrin genişlənməsi Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin dərinləşməsi kontekstində xüsusilə diqqət çəkir. Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyev söhbət zamanı Azərbaycanla Polşa arasında bir çox istiqamətdə əməkdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğulayıb, siyasi və iqtisadi sahədə əlaqələrimizin inkişafından məmnunluğunu bildirib.

Prezident İlham Əliyev Polşanın Avropa İttifaqının üzvü olduğunu deyərək, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı istiqamətində də ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin önəminə toxunub. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ilə Avropa İttifaqı arasında yüksəksəviyyəli təmasların ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasına şərait yaratdığını qeyd edib.

Pavel Radomski Bakının inkişafının şahidi olduğunu deyərək, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini bildirib və orada aparılan genişmiqyaslı quruculuq işlərinin, həmçinin həmin ərazilərin təbiətinin onda dərin təəssürat hissi yaratdığını vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Cinayətkarlar cəzalandırılmalıdır!

## Baş verənlər Rusiyanın siyasi elitasının iradəsindən kənar deyil

Yekaterinburqda azərbaycanlı ailəyə qarşı edilən hücum, iki nəfərin qətlə yetirilməsi Rusiya siyasətində şovinizm və etnoayrı-seçkiliyi bir daha ortaya çıxardı. Məsələni fərqli rakurslardan izah edən siyasətçilər isə hadisənin dövlət elitasının iradəsindən kənar baş vermədiyi qənaətindədirlər. Düşüncələr və münasibətlər bir nöqtədə birləşir - bu, diskriminasiya və terror hadisədidir, cinayətdir və baş verənlərə hüquqi yanaşma sergilənməlidir.

Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Rusiya qvardiyasının, həmçinin təhlükəsizlik qüvvələrinin maskalı şəraitdə, silahlı, sanki böyük terror qruplarını zərərsizləşdirəcək şəkildə azərbaycanlı ailəyə qarşı qəddar davranışlarının hüquqi əsası yoxdur: "Yəqin ki, onlarda Səfərovlar ailəsinin silahsız olması barədə informasiya olub. Görünən mənzərə bəllidir: söhbət son dərəcə təhlükəli, diskriminativ, hətta faşist təmayüllü, az qala Rus xalqını ari, digərlərini isə aşağı "növlü" millətlər sayıb onların üzərinə getməkdən qaynaqlanır. Bu xətt Rusiyanın bəzi dövlət orqanlarında hələ də hakimdir və son dərəcə ağır, beynəlxalq, regional nəticələr doğura bilər". Prosesi media məkanında müşahidə edərkən bir sıra sinxron halların şahidi olduğunu bildirən millət vəkili deyib ki, ilk növbədə məsələyə ən yüksək səviyyədə qərar verildiyi inkar edilə bilməz. "Sirr deyil ki, Rusiya elitasında həmişə bölgəni özünün imperiya subyekti kimi görən, onun müstəqilliyini həzm etməyən dairələr mövcuddur. Baş verənlərdə də son illər Rusiya-Azərbaycan münasibətlərinə bu nöqteyi-nəzərdən yanaşanların xətti görünür. Rusiyada ötənilki təyyarə qəzasında Azərbaycanın haqlı mövqeyinə və duruşuna qarşı "yenə də cəzalandırmaq" siyasətinin tərəfdarları da var. Görünməyən səbəblər də ola bilər. Məsələn, Azərbaycanın İsraillə münasibətləri, İranla müharibə dövründə ölkəmizin son dərəcə uğurlu balanslı davranışları...", - deyən Z.Oruc qeyd edib ki, media məkanı prosesi bəzən fərqli məqamlarla əsaslandırmağa çalışır. Ortaya qoyulan mövqe Azərbaycanın qələbədən sonra daha müstəqil siyasət yürütməsi, regional arxitekturanı istədiyi kimi formalaşdırması və s. kimi amilləridir: ""Rusiyanın düşmənləri Azərbaycanda mövqeyə malikdirlər" kimi baxış, münasibət tamamilə yanlışdır. Nəticə etibarı ilə isə gəldiyimiz nəticə bundan ibarətdir ki, bu, sistemin qərarıdır, siyasidir. Azərbaycanlıları müxtəlif istiqamətlərdə ictimai fikirdə, siyasi məkanda, informasiya aləmində olan ciddi obrazını qaralamaq və bundan irəli gələrək təmizləmə əməliyyatı keçirmək niyyəti güdülüb. Bu, humanitar basqının yeni növlərindəndir ki, son illərdə yaşamışıq".

STM rəhbəri qeyd edib ki, Azərbaycan hər hansı bir üçüncü dövlətə hərbi məkan deyil. Rusiya özü 2022-ci ildə imzalanmış strateji müttəfiqlik sənədinin ruhuna, prinsipləriə zidd addımlar atır və bunu təmizləmə əməliyyatı kimi qələmə verir: "Rusiyanın şərhçilər ordusu məsələni "əsaslandırmağa çalışanda" hansı "fəndlərdən" istifadə etmirlər: guya, həmin zərərçəkənlər orada cinayətkar fəaliyyətlərlə məşğuldurlar, narkotik daşıyıcılarıdır, silah alverçiləridir, hətta Ukrayna döyüşlərində ilk sırada onlar döyüşməlidirlər və s. Nəticə etibarı ilə bildirirlər ki, onlar hamısı çıxarılmalıdır və Azərbaycan dövlətinə təzyiqlər olmalıdır. İddia edirlər ki, biz müstəqillik məkanında özümüzü daha böyük hiss edirik, Türkiyə ilə münasibətlərimiz yaxınlaşır, TDT regional gücə çevrilib və bu Rusiyanın maraqlarına ziddir. İfadələr kifayət qədər belə demək mümkündürsə, çərçivələnib və orada sadə insan mövqeyi görmək mümkün deyil. Azərbaycan XİN, ölkəmizdəki rus icmasının təmsilçiləri və rəhbərləri, çox düzgün olaraq bu qəddar hərəkətləri, cinayətləri edənlərin cəzalandırılmasını tələb ediblər. Nə qədər gec deyil buna hüquqi qiymət verilməlidir".

Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa isə Rusiyada baş verən hadisənin dövlət səviyyəsində kriminal əməl kimi qiymətləndirilməli olduğunu bildirib. O bildirib ki, heç bir şübhəli məqamla insanların evinə basqın təşkil edərək öldürülməsinə bəraət qazandırmaq mümkün deyil: "Burada bu qədər insanın öldürülməsi və işgəncəyə məruz qalması məqsədyönlü xarakter daşıyır. Bu, birbaşa sifarişlə həyata keçirilən prosesdir. Həmçinin bu Azərbaycana qarşı törədilən ciddi bir aktdır. Bu dövlət bütövlükdə bu cür proseslərin qarşısını almasa, ölkə daxilində ciddi fəsadlara gətirib çıxara bilər. Bu, miqrantların sıxışdırılması kimi qiymətləndirilə bilməz. Bu, birbaşa ölkədə yaşayan şəxslərin dövlətin əli ilə öldürməsindən söhbət gedə bilər".

F. Mustafa qeyd edib ki, Azərbaycanın bu məsələyə sərt reaksiyası anlaşılandır: "Vətəndaş və soydaşlarımızın qorunması üçün ciddi addımlar atılmalıdır. Bu, Rusiya və Azərbaycan arasında strateji münasibətlərin ruhuna zidd addımdır. Bu, eyni zamanda, sərnişin təyyarəsinin qəzaya düşməsi ilə eyni zehniyyətin başqa bir təzahürüdür. Burada dünyası dəyişənlər bizim üçün əziz insanlardır, soydaşlarımızdır. Orada yaşayan vətəndaşlarımıza qarşı bu cür kriminal hadisənin dövlət strukturlarının əlilə törədilməsi yolverilməzdir. Bu cinayəti törədənlər mütləq cavab verməlidirlər".

*P.İSMAYILOV*

Прощай, немытая Россия,
Страна рабов, страна господ,
И вы, мундиры голубые,
И ты, им преданный народ.

# Ac və qəzəbli Rusiya...
## Nə istəyir?

Əlvida, yuyulmamış Rusiya,
Qullar ölkəsi, ağalar ölkəsi,
Və siz, mavi mundirlər,
Və sən, onlara sadiq xalq...

M.Lermontov

**Bir neçə gün öncə Rusiyanın Yekaterinburq şəhərində Federal Təhlükəsizlik Xidməti (FSB) azərbaycanlı Səfərovlar ailəsinə qarşı amansız işgəncələr həyata keçirib. Ailənin fərqli fərdlərinin yaşadıqları müxtəlif ünvanlara keçirilən əməliyyat nəticəsində 9 nəfər saxlanılıb. Əməliyyat zamanı iki qardaş - Hüseyn Səfərov və Ziyəddin Səfərov qətlə yetirilibər. Hadisə haqlı olaraq Azərbaycan ictimaiyyətində böyük narazılıq yaradıb.**

## Kin, hiddət, qısqanclıq...



Əslində, baş verənlər son 30 - 35 ildə həm yaşanan, həm də müşahidə olunan "ənənəvi" presedentin davamıdır - Rusiyada xüsusilə azərbaycanlılara, özbəklərə, qırğızlara, türkmənlərə və digər millətlərin nümayəndələrinə qarşı həyata keçirilən şovinist, diskriminasiya və islamofob siyasət danılmaz faktdır. Qeyd edildiyi kimi, bu indinin və ya müasir proseslərin təzahürü deyil - bunun arxasında onilliklərdən, bəlkə də yüzilliklərdən gələn bir ənənə dayanır. Hansısa "haqqla" özünü regionun sahibi sanan Rusiya imperialist siyasətini, planlarını hərəkətlərinə də proyeksiya edib - Rusiya əsrlərə digər xalqlara qarşı bu tip davranışlar sərgiləyib. Bu gün baş verənlər də formalaşmış ənənənin davamı və daha sərt formasıdır. Bunun arxasında kin, hiddət, qısqanclıq və həzm edə bilməmək hissi dayanır - bölgənin stabil inkişafa malik dövlətlərinin son illərdə qazandığı parlaq inkişaf trayektoriyası rus şovinizminin, rus imperializminin gözünü qamaşdırır. Bu mənada, Azərbaycan xüsusilə seçilir...

## Rusiya imperializminin və şövinizminin acı misalı- UKRAYNA

Rus imperializminin təzahürləri itməyib - çar Rusiyasının iflasından sonra da, Sovet İttifaqının çöküşünün ardından da bu imperialist davranış, bu şovinist yanaşma ardıcıl şəkildə davam etdi. XXI əsrdə hələ də işğal və dağıdıcılıq axtarışında olan Rusiyanın mahiyyəti bir misalda daha real görünür - əgər bu gün Rusiya qardaş olan, dili, dini eyni sayılan slavyan Ukrayna xalqına qarşı belə qəddar siyasət yürüdürsə, Ukraynanın şəhər və kəndlərini yer üzündən silirsə, Buçadakı kimi soyqırımı həyata keçirirsə, yaşayış məntəqələrini ən son dağıdıcı silahları ilə vurursa, o zaman digər xalqlara qarşı daha qəddar və acımasız davranışı təəccüb doğurmamalıdır. Yuxarıda da qeyd etdiyimiz kimi Soveti İttifaqının dağılmasının ardından Rusiya nəinki öz qonşularına qarşı, hətta özünün tərkibində olan xalqlara qarşı dözümlü və müasir çağırışlara əsaslanan, tolerant davranış sərgiləməyib. SSRİ-nin simasında imperiya dağıldıqdan sonra Rusiyada şovinizm və islamofobiya hətta ən yüksək həddə çatıb. Çeçen xalqına qarşı etnik təmizləmə həyata keçirən Rusiya eyni siyasəti digər xalqlara qarşı da reallaşdırmaq istəyir. XXI əsrin birinci onilliyində Gürcüstana münasibətdə tutduğu mövqe isə hər şeyi deyir - bu ölkə və onun siyasi rəhbərliyi hələ də özünü Sovet İttifaqının "aparıcı gücü" sayır.

## Etnocinayətkarlıq ənənəsi...

Təbii ki, ayrı-ayrı dövlətlərdə də epizodik qarşıdurmalar, hətta cinayətlər baş verir. Amma nədəndirsə, Rusiyada bu kimi nasist mahiyyətli insidentlərə çox tez-tez rast gəlinir. Çox uzağa getməyək - hətta ötən əsrin son on ilində Rusiyada tüğyan edən "skinhed" hərəkatına baxmaq kifayət edir. Bu hərəkatın "nümayəndələrinin" törətdikləri cinayətlər saysız-hesabsız idi. İrqi sayrı-seçkilik, diskriminasiya və dözümsüzlük, hətta dini rasizmi belə həmin skinhedlərin əli ilə həyata keçirirdilər. Qeyri-rus xalqların nümayəndələrinə qarşı qəddarlığı ilə seçilən skinhed hərəkatının arxasında Rusiya xüsusi xidmət orqanlarının dayanmasına isə şübhə yox idi - bu faktı həmin dövrün rus mətbuatını izləyən hər kəs bilir. Qeyri-rus millətin yaşadıqları ünvanlar, iş yerləri barədə dəqiq məlumatların skinhedlərə məhz xüsusi xidmət orqanı tərəfindən "ötürülməsi" sirr deyildi. Əslində, Rusiyanın təhlükəsizliyini qorumalı olan "qüvvələr" əsl təhdid və təhlükə mənbəyi idi - tələb olunan rüşvət və ya qeyri-qanuni haqq verilmədiyi təqdirdə həmin şəxslərin ünvanı skinhedlərə ötürülürdü, onların həyatı təhlükə altına düşürdü.

Bu gün isə artıq heç skinhedlərə də ehtiyac yoxdur, çünki bu funksiyanı Rusiyanın hüquq-mühafizə orqanları daha qəddar və açıq formada həyata keçirirlər. Onlar qeyri-qanuni və qeyri-hüquqi vasitələrlə insanların evlərinə soxulur, onları qeyri-müəyyən "ittihamlarla" həbs edir, hətta qətlə yetirirlər. Bu kimi faktlar onlarladır və bütün millətlərə qarşı törədilir - bu isə, humanizmdən dəm vuran Rusiya dövlətinin, rus xalqının faciəsidir.

## Maskasız cinayətkar - OMON



Baş verən qəddarlıq, vəhşilik və cinayətkarlıq izahı mümkün olmayan bir faktdır. Azərbaycanlılara qarşı törədilən cinayətin bütün detalları Rusiya polisinin və OMON-un qəddarlığını, qeyri-insani davranışını ortaya qoyur. İnsanların nəinki fundamental, hətta ən primitiv hüquqlarının qorunmadığı, polisin daha çox təhlükə mənbəyi sayıldığı Rusiyada adını "polis" qoymuş orqanlar cinayətkarlara xas iş üslübü ilə fəaliyyət göstərirlər. Hətta bu ölkədə qanunlar və hüquq o qədər yox dərəcəsindədir ki, adıçəkilən hüquq sisteminin işçiləri üzlərini, kimliklərini gizləməyə belə ehtiyac duymurlar. Başqa sözlə, 1990-cı illərdə OMON, munisipal polisin qəddarlıq ənənələri artıq maskalanmadan daha şiddətli formada həyata keçirilir. Rusiya hüquq-mühafizə orqanlarının ixtira etdiyi etnocinayətkarlıq anlayışı bu ölkədə digər xalqların nümayəndələrinin artıq cinayətkar kimi təqdim olunmasına hüquqi əsas yaratmaqcəhdinə çevrilib. Rusiya törətdiyi və daha da genişləndirməyi planlaşdırdığı etnotəmizləmə siyasəti üçün zəmin yaradır. Müasir yaşam qanunları bu ölkə üçün xarakterik deyil - bu ölkənin təhlükəsizlik qüvvəsi adlanan "kəsimi" yalnız və yalnız vəhşilik, cinayətkarlıq, qəddarlıqla yadda qalır.

## Stalin repressiyalarını belə kölgədə qoyanlar...



Tarix ən acı, ən repressiv dövrlərə şahidlik edib. Keçmiş SSRİ-nin tarixində Stalin repressiyası adlanan bir zaman olub ki, bu gün də nifrətlə, hiddətlə "yad edilir". Bu gün Rusiyada baş verənlər hətta həmin tarixə də "şükr etdirir". Çünki ağır Stalin hakimiyyəti dövründə SSRİ-də reppresiyalar da müəyyən qaydalara əsaslanırdı - insanları küçədə, evində güllələmirdilər, işgəncə vermirdilər. Bunun üçün həbsxanalar, düşərgələr varıydı. Hazırkı Rusiyada baş verənlər isə Stalin repressiyalarını belə kölgədə qoyur.

Bəli, Rusiya yenə də öz mahiyyətinə geri qayıdır. 1990-cı ildə Azərbaycanın azadlıq səsini eşitməyə gücü çatmayan, bunu həzm etməyən Rusiya Bakıya silahlı qoşun göndərib qırğın törətmişdi, xalqımızın azadlıq eşqini söndürməyə çalışmışdı. 1992-ci ildə Rusiya qoşunlarının bir hissəsi olan 366-cı alay Xocalı qətliamında fəallıq nümayiş etdirmişdi, Azərbaycan torpaqlarının işğalına şərait yaratmışdı. Sonrakı dövrdə isə Rusiya əlindən gələni qədər bu işğal faktının uzanması üçün çalışmışdı. Amma bu gün tamam başqa mənzərə mövcuddur. Azərbaycanın müstəqilliyi günügündən daha da möhkəmlənir. Ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olunub. Artıq bölgədə qalib və güclü Azərbaycan var. Artıq Moskva anlayır ki, onun dominantlıq arzusu və hədə dilində danışması mümkün deyil. Ötən ilin sonunda baş vermiş təyyarə hadisəsi zamanı da biz bunun şahidi olduq. Azərbaycan dövlətinin sərgilədiyi qətiyyət və duruş Moskvaya dərs olmalı idi...

Amma deyəsən Rusiya özünə dərs çıxarmaq istəmir. Azərbaycanla xoş, qarşılıqlı hörmətə söykənən qonşuluq münasibəti əvəzinə yeni-yeni cinayətlərə əl atır. Son dövrlərdə Rusiyadan qaynaqlanan kiberhücumlar, azərbaycanlı deputatın Rusiyaya buraxılmaması faktı bunu təsdiqləyir. Baş verən son cinayətkar hadisə isə yalnız və yalnız Rusiyaya mənfi "xal" qazandırır. Azərbaycan özünün seçdiyi, yürütdüyü və inandığı yoldan dönməyəcək...

**P.İSMAYILOV**

# Azlıqlara qarşı ideoloji səfərbərlik
## Rus Pravoslav Kilsəsi və şovinist siyasəti...

Son illərdə Rusiyada yaşayan türk və müsəlman xalqların nümayəndələri - o cümlədən azərbaycanlılar, özbəklər, qırğızlar, türkmənlər və tatarlar - sistemli diskriminasiya, şovinist münasibət və islamofob siyasətlə üz-üzədirlər. Rusiya özünü çoxmillətli dövlət kimi təqdim etsə də, mövcud reallıq etnik azlıqlara qarşı ardıcıl və məqsədyönlü ayrı-seçkilik siyasətinin mövcudluğunu göstərir.

Xüsusilə son dövrlərdə azərbaycanlılara qarşı artan mənfi media təsviri, hüquq-mühafizə orqanlarının qərəzli yanaşması, mədəni və iqtisadi sıxışdırma halları bu cəmiyyətin hüquqi bərabərlik və təhlükəsiz yaşayış haqqını ciddi şəkildə pozur.

## Azərbaycanlılara və digər türk xalqlarına qarşı qərəzli münasibət

Mövcud vəziyyət təsadüfi xarakter daşımır. Bu hadisələrin arxasında dərin tarixi, siyasi və ideoloji köklərə malik sistemli siyasət dayanır. Bu prosesin əsas ideoloji dayaqlarından biri kimi Rus Pravoslav Kilsəsi çıxış edir. Şübhəsiz, bu siyasətin arxasında Rusiya Federasiyasının hakim siyasi elitası dayanır. Əslində, baş verənlər, əsrlər boyu müxtəlif xalqlara qarşı həyata keçirilən imperialist siyasətin müasir, daha sərt və açıq formasının davamı kimi qiymətləndirilə bilər.

Rus Pravoslav Kilsəsi bu ideoloji təzyiqlərə əsaslandırma verir və hüquq-mühafizə orqanlarının sərt, bəzən isə qəddar hərəkətlərinə haqq qazandırır. Mövcud yanaşma cəmiyyətdə nifrət və parçalanma toxumları səpir, milli-etnik münasibətləri zərbə altına qoyur. Hazırkı ideoloji model tarixi imperiya düşüncəsi, şovinist yanaşmalar və güclü mərkəzləşdirilmiş idarəetmə ilə sıx bağlıdır. Bu ideologiyada rus dili, rus mədəniyyəti və pravoslav dəyərləri üstün mövqedədir. Türk və müsəlman kimliyi isə "mədəni-siyasi təhdid" kimi təqdim edilir.

Qafqazlılar, Orta Asiyalılar və müsəlman xalqlar haqqında formalaşdırılmış neqativ stereotiplər rus cəmiyyətinin ictimai şüurunda dərin yer tutub. Bu stereotiplər etnik zəmində zorakılıqlar və nifrət cinayətlərinə ideoloji zəmin hazırlayır. Özbəkistan, Tacikistan, Qırğızıstan, Azərbaycan və digər türk-müsəlman ölkələrindən gələn miqrantlar Rusiya iqtisadiyyatı üçün "ucuz işçi" qüvvəsi kimi qəbul olunmaqla yanaşı, onların hüquqları da tez-tez pozulur.

Qeyd edilməlidir ki, Rusiya imperiyasının və sonrakı Sovet İttifaqının idarəçilik modelində qeyri-rus xalqlara, xüsusilə də müsəlmanlara qarşı assimilyasiya və nəzarət siyasəti tarixən mövcud olub. Çar Rusiyası dövründə müsəlmanların dini və mədəni hüquqları sistemli şəkildə məhdudlaşdırılıb, məscid tikintisi, dini təhsil və ibadət fəaliyyəti ciddi şəkildə əngəllənib. Sovet dövründə isə ümumilikdə din repressiyalara məruz qalıb, məscid və mədrəsələr bağlanıb, islam dini "xurafat" kimi təqdim olunub. Bu prosesdə Rus Pravoslav Kilsəsi həm ideoloji dəstəkçi, həm də strateji tərəfdaş funksiyasını yerinə yetirib.

## Rəsmi din azadlığı və reallıq arasındakı ziddiyyət



Göründüyü kimi, Rusiyada dini azadlıq Konstitusiyada hüquq kimi tanınsa da, praktiki müstəvidə bu hüquq ciddi şəkildə məhdudlaşdırılır. Xüsusilə islam dini, yeni dini icmalar və bəzi milli azlıqlara məxsus dini birliklər sistemli nəzarət və təqibə məruz qalır. Bu siyasət dövlətin milli təhlükəsizlik strategiyası, pravoslav ideologiyası və avtoritar idarəetmə sistemi ilə sıx bağlıdır.

Qeyd etmək vacibdir ki, islam Rusiya ərazisində pravoslavlıqdan sonra ikinci ən böyük dindir. Xüsusilə Şimali Qafqaz, Tatarıstan və Başqırdıstan bölgələrində geniş yayılan islam dini, buna baxmayaraq, tez-tez təhlükə mənbəyi kimi təqdim edilir.

## Etnik və dini gərginliklər gələcək üçün təhlükədir

Beynəlxalq təşkilatların çoxsaylı hesabatlarında Rusiya Federasiyası etnik və dini azlıqların hüquqlarını sistematik şəkildə pozmaqda tənqid olunur. BMT, Avropa İttifaqı və ATƏT dəfələrlə Moskvanı dini plüralizmə və azlıqların hüquqlarının qorunmasına dair beynəlxalq öhdəliklərini yerinə yetirməyə çağırıb. Lakin faktlar göstərir ki, bu çağırışlar ciddi nəticə doğurmur. Əgər bu ideoloji və hüquqi təzyiqlər davam edərsə, yaxın gələcəkdə Rusiya cəmiyyətində etnik və dini gərginliklərin, sosial parçalanmanın daha da dərinləşməsi qaçılmaz olacaq.

**Elşən YƏHYAYEV,**
**Yeniazerbaycan.com saytının redaktoru**

# MÜBARİZ İNSAN!

İyunun 30-da görkəmli alim, akademik, ictimai xadim Cəlal Əliyevin anadan olmasının 97-ci ildönümü tamam oldu. Şərəfli ömür yolu, elmi nailiyyətləri, ictimai-siyasi fəaliyyəti ilə müasirlərinin dərin rəğbətini qazanmış dəyərli alimimiz Cəlal Əliyevin elmi və ictimai fəaliyyətinin hər bir səhifəsi xalqa xidmət nümunələri ilə zəngindir. Cəlal müəllim xarakterinə görə dürüst, fədakar, ədalətli və qorxmaz insan idi. O, həyatının bütün mərhələlərində eyni prinsiplə yaşayıb. Üzləşdiyi çətinliklərə, məhrumiyyətlərə, haqsızlığa baxmayaraq ruhdan düşməyib, mübarizliyindən və əqidəsindən bir addım da geri çəkilməyib, inamla, inadla yoluna davam edib. O, heç kimdən, heç nədən çəkinməyən, qorxmaz, əyilməyən məğrur bir şəxsiyyət idi. Onun xarakterini iki sözlə belə ifadə etmək mümkündür: O, mətin və qayğıkeş bir insan idi. Mübariz, prinsipial, bəzən sərt olduğu qədər də həssas, duyğusal və kövrək idi.

Cəlal Əliyevin Ulu Öndər Heydər Əliyevə qarşı olan sonsuz sədaqətindən günlərlə, aylarla danışmaq olar. Bu gün hamı etiraf və qəbul edir ki, Heydər Əliyevin 1990-cı ildə Moskvadan Vətənə qayıdışının əsasında Cəlal müəllimin xüsusi rolu oldu. Öndərimizdən söz düşərkən onun gözlərində ölçüyəgəlməz bir qürur hissi duyulurdu. O bildirirdi: “Qardaşım olduğu üçün demirəm. Heydər kimi şəxsiyyətlər dünyaya min ildə bir gəlir. Azərbaycan tarixində onunla rəqabət apara biləcək ikinci bir dövlət adamı yoxdur”.

Cəlal müəllim prinsipial, qətiyyətli şəxs idi. O, yeganə elm xadimidir ki, Sovet İttifaqı Kommunist Partiyasının rəsmən buraxılmasından xeyli əvvəl Kommunist Partiyasından çıxmaq haqqında qərar qəbul etdi. O, 1991-ci ildə Elmlər Akademiyasının Partiya Komitəsinə ərizə yazaraq, könüllü surətdə partiya üzvlüyündən imtina etdi. Onun yazdığı ərizənin mətni bir daha sübut edirdi ki, Cəlal müəllim əsl vətənpərvər Azərbaycan ziyalısıdır.

Azərbaycan cəmiyyəti Cəlal Əliyevi Ümummilli Liderimiz Heydər Əliyevin yaxın silahdaşı, əqidə yoldaşı və mübariz bir insan kimi tanıyır. O, bütün qanı və canı ilə dövlətə, dövlətçiliyə, Heydər Əliyevə bağlı olan insan idi. Cəlal müəllim fədakar qardaş, fədakar ictimai xadim idi. Onun Heydər Əliyevə olan münasibəti ilə Azərbaycan uğrunda apardığı əzmkar mübarizə arasında paralellər də aparmaq olar. O, həmişə Heydər Əliyevin yanında olub, çətin sınaqlarda və şərəfli dövlət quruculuğunda çiyin-çiyinə mübarizə aparıb. Kiçik qardaş kimi Cəlal müəllim Heydər Əliyevə, onun ailəsinə siyasi mərkəzdən yönləndirilən təzyiqlərə qarşı fərqli bir mövqe nümayiş etdirdi, iftiralara, yalanlara, təhqirlərə dirəniş göstərən böyük mübarizə cəbhəsi açmışdı. 1987-ci ildə Siyasi Bürodan istefa verəndən dərhal sonra Heydər Əliyevin əleyhinə yönəlmiş kampaniya onun yaxınlarından yan keçməmişdi. Mərkəzi və yerli mətbuatda qərəzli, təhqiramiz yazılar dərc edilirdi. “Pravda”,” Sovet kəndi” və başqa qəzetlərdə Heydər Əliyevə və onun qardaşlarına saysız-hesabsız böhtanlar yağdırılırdı. Amma bütün bunlar Cəlal müəllimi yolundan çəkindirə bilmədi. Heç nədən qorxmayaraq, həmin dövrdə qəzetlərdə yazılan böhtanların qarşısını cəsarətlə alır, bütün təzyiqlərə baxmayaraq, mübarizəsindən geri çəkilmirdi. Cəlal müəllim həyatının bütün mərhələlərini ədalət uğrunda mübarizəyə həsr etmişdi. İstər alim, istərsə qardaş və hətta ictimai-siyasi xadim kimi də Cəlal Əliyev yalnız bir missiyanı yerinə yetirirdi: haqsızlıqla barışmamaq, sınmadan, boyun əymədən yaşamaq. O, həmişə dərin inam hissi və yorulmaq bilməyən fəaliyyəti ilə zəngin və qüdrətli Azərbaycan quruculuğunun ön sıralarında olub, ölkəmizin xoşbəxt gələcəyi naminə çalışıb. Ulu Öndərimizin tərəfdarları Cəlal müəllimi döyüşən, canlı “Heydər Əliyev mərkəzi”hesab edirdilər.



1990-cı illərin əvvəlində baş verən mürəkkəb proseslər fonunda Cəlal Əliyev Azərbaycanın nicatını Heydər Əliyevin Bakıya qayıtmasında və ölkəyə rəhbərlik etməsində görürdü. Bu məqsədə çatmaq üçün o, Ulu Öndərimizin Moskvadan Bakıya qayıtmasına çalışırdı. O, özü qədər Heydər Əliyevə sadiq olan insanlara müzakirələr açır, onun Bakıya qayıtması üçün çıxış yolu axtarırdı. Yaxşı xatirimdədir, Cəlal müəllim Əjdər Xanbabayev, Aqil Əliyev və mənimlə görüşündə bütün təhlükələrə baxmayaraq, Heydər Əliyevin Vətənə qayıtmasını israrla söyləyirdi. Lakin Əjdər Xanbabayev sui-qəsd nəticəsində öldürüldükdən sonra Heydər Əliyevin Moskvadan Bakıya qayıdışı bir müddət təxirə düşdü. Ovaxtkı hakimiyyət Heydər Əliyevin Bakıya dönüşünü əngəlləmək üçün Cəlal Əliyevə də ciddi təzyiqlər göstərirdi. Amma bütün bunlar heç bir nəticə vermədi. 1990-cı ilin yayında Moskvadan Bakıya qayıdan Heydər Əliyev gəldiyi günün gecəsi Cəlal müəllimin evində qaldı. Səhəri gün isə Naxçıvana getdi.

Cəlal müəllim respublikamızın müstəqilliyi və dövlətçiliyi təhlükə altında olanda Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışı üçün həyatını təhlükəyə atdı, ölümdən belə qorxmadı. Bu prosesdə Heydər Əliyevin tərəfdarları məhz onun ətrafında toplaşırdılar. Buna görə də Cəlal müəllimi əsl fədai hesab etmək olar. O, fədakarlığı və cəsarəti ilə neçə-neçə insana örnək olan, Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasında əvəssiz xidmətləri olan və YAP-ın “Qızıl Fondu”nda adı olan ziyalılardandır. Uzun və şərəfli mübarizə öz nəticəsini verdi. 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdaraq xalqımızı bütün çətinliklərdən xilas etdi. Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti bu gün ən güclü və qüdrətli dövrünü yaşayır. Buna görə də, akademik Cəlal Əliyevin ruhu bu gün şaddır. Biz hər zaman bu mübariz insanın əziz xatirəsini böyük ehtiramla yad edirik. Akademik Cəlal Əliyevin həyat və fəaliyyəti prinsipiallıq, əqidəsinə sadiqlik və mübarizlik örnəyi kimi daim yaşayacaq!

*Rizvan VAHABOV,*
*Yeni Azərbaycan Partiyasının üzvü*

# Mina terroru davam edir...

## Xidməti vəzifəsini yerinə yetirən polis Ağdamın Papravənd kəndində minaya düşüb

**Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.**
**Belə ki, iyunun 30-da Ağdam rayonunun Papravənd kəndi ərazisində mina hadisəsi baş verib. Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətlərinin birgə məlumatında bildirilib. Ağdam rayon Polis Şöbəsinin əməkdaşı, polis nəfəri xidmət vaxtı rayonunun işğaldan azad edilmiş Papravənd kəndi ərazisində piyadaəleyhinə minaya düşməsi nəticəsində xəsarət alıb. Zərərəçəkmiş şəxsin sağ ayağı topuqdan amputasiya edilib.**

## XİN: Mina qurbanlarının sayı 399 nəfərə çatıb

Hadisəyə Azərbaycanın Xarici İşlər Nazirliyi də reaksiya verib. Nazirliyin “X” hesabında edilən paylaşımda bildirilib ki, 2020-ci il Vətən müharibəsinin bitməsindən sonra Azərbaycanda mina qurbanlarının ümumi sayı 399 nəfərə çatıb: “Ermənistanın mina ilə çirklənmiş ərazilərin tam və dəqiq xəritələrini təqdim etməkdən davamlı şəkildə imtina etməsi bu ərazilərdə yaşayan mülki şəxslər və digər insanlar üçün ciddi təhlükə yaradır. Beynəlxalq ictimaiyyət bu humanitar hüquq pozuntuları qarşısında səssiz qalmamalıdır”.

Göründüyü kimi, 44 günlük Vətən müharibəsindən bəri 400 nəfərə yaxın Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanı olub. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.



## Son bir həftədə nə qədər mina zərərsizləşdirilib?

Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Yeri gəlmişkən, ANAMA işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən ötən həftə, yəni 23-29 iyun tarixlərində icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb. Verilən məlumata görə, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 85, tank əleyhinə 18 mina və 524 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin həftə ərzində 1350.8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Təkcə bu fakt belə, problemin nə dərəcədə ciddi olmasından xəbər verir.

Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Buna nümunə olaraq, aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu”nun imzalanmasını göstərmək olar. Bütün bunlarla yanaşı, beynəlxalq ictimaiyyət Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təzyiqlər göstərməlidir.

*Nardar BAYRAMLI*

# Beşinci sosial paketin ikinci mərhələsinə start verildi

**İyulun 1-dən etibarən ölkəmizdə beşinci sosial paketin ikinci mərhələsinə start verilir. Prezident İlham Əliyevin cari il iyunun 12-də imzaladığı “Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Fərmanına əsasən, iyulun 1-dən sosial müavinətlərin məbləğləri orta hesabla 20-30 faiz artırılıb. Belə ki, növbəti sosial paket çərçivəsində əmək pensiyası hüququ olmayan birinci qrup əlilliyi olan şəxslərin aylıq müavinəti 270 manatdan 300 manata, ikinci qrup əlilliyi olanların müavinətləri 220 manatdan 250 manata, üçüncü qrup əlilliyi olan şəxslərin müavinətləri isə 150 manatdan 180 manata qaldırılıb. Ailə başçısını itirməyə görə müavinət 120 manatdan 140 manata çatdırılıb.**

## Bu gündən sosial müavinətlər və təqaüdlər artırılır...

### Sosial dövlət modelinin nümunəsi

Həmçinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına ödənilən müavinətin məbləği 140 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına verilən müavinətin məbləği 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşaq və beşdən çox uşağı olan qadınlara hər uşaq üçün müavinət 140 manata, övladlığa götürülən uşağa görə isə müavinət 240 manata çatdırılıb.

Himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə, müavinətlər 0-6 yaş arası uşaq üçün 500, 7-13 yaş arası uşaq üçün 600, 14-18 yaş arası uşaq üçünsə 650 manat məbləğində müəyyənləşib. Uşağın anadan olmasına görə, müavinətin məbləği 600, habelə dəfn üçün müavinətin məbləği 600 manat təsdiqlənib.

İyulun 1-dən təqaüdlərin məbləği də təxminən 25-30 faiz həddində artırılır. “Vətən Müharibəsi Qəhrəmanı”na verilən aylıq təqaüdün məbləği 2200, Milli Qəhrəmanlar üçün 2000, şəhid ailəsi üçün 700, həmçinin 20 Yanvar şəhidinin ailəsi üçün 700, Əfqanıstanda döyüşlərdə həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün 700 manat məbləğində müəyyən olunub, Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilən təqaüdlər isə birinci qrup üzrə 600, ikinci qrup üzrə 500, üçüncü qrup üzrə 400 manat təsdiqlənib.

### Sonuncu artımlar 1,1 milyon vətəndaşı əhatə edəcək

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği isə 1700 manat müəyyən edilib. Fəxri adlara görə aylıq təqaüdün məbləği 2025-ci il iyulun 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 300 manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 200 manat həddində təsdiqlənib.

Beləliklə, təkcə iyulun 1-dən qüvvəyə minən beşinci paketin növbəti mərhələsi üzrə sonuncu artımlar 1,1 milyon vətəndaşı əhatə edəcək. Bu, Azərbaycanda sosial təminat sisteminin daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən işlərin tərkib hissəsi kimi səciyyələndirilə bilər və vətəndaşlarımızın rifah halının daha da yüksəldilməsinə xidmət edən siyasətin nümunəsidir.













### Ötən 6 ayda 1 milyondan çox insanın rifahı yaxşılaşıb

Qeyd edək ki, 2025-ci ilin yanvar ayından etibarən ölkəmizdə beşinci sosial islahat paketi çərçivəsində bir sıra sahələrdə sosial artımların icrasına start verilib. Dövlət başçısının imzaladığı “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” sərəncamına uyğun olaraq, minimum aylıq əməkhaqqının məbləği 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılıb. Vahid tarif cədvəlinə (VTC) əsasən, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə (sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma və s) çalışan işçilərin əməkhaqları artırılıb. Habelə minimum pensiyanın məbləği 280 manatdan 320 manata çatdırılıb, əmək pensiyalarının artımı təmin olunub. Ehtiyac meyarının məbləğinin 2025-ci il yanvarın 1-dən 285 manata çatdırılması sayəsində ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşların aldığı yardım məbləği də artırılıb.

Həmçinin dövlət başçısının “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncamına əsasən, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı və Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi, Atatürk Mərkəzi, dövlət arxivləri və filialları, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Dövlət Film Fondu, Quba şəhərində “Soyqırımı memorial kompleksi”, Milli Aerokosmik Agentliyinin Aparatı, Milli Kulinariya Mərkəzi, Mənəvi Dəyərlərin Təbliği Fondu və icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqların maaşları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb. Nəticədə, ötən 6 ayda 1 milyondan artıq vətəndaşın sosial həyatında müsbət dinamika baş verib.

### Dövlət büdcəsindən 1,4 milyard manat ayrılacaq

Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, Müdafiə Nazirliyinin və digər güc strukturlarının həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları artırılıb. Eləcə də bir sıra dövlət orqanlarında xüsusi hərbi rütbəsi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə maaşlarında artımlar edilib.

Ümumilikdə, beşinci sosial paket 3 milyon vətəndaşımızı əhatə etməklə, pensiya, minimum əməkhaqqı, maaş, sosial müavinət və təqaüdlərin hər birinin artımlarını təmin etməyə xidmət edir. 2025-ci ildəki artımlar üçün dövlət büdcəsindən illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq. Bu sosial rifah proqramı ölkəmizdə əhalinin sosial təminatının daha da gücləndirilməsinin prioritetliyini əks etdirməklə, dövlətin yürütdüyü siyasətin mərkəzində vətəndaş rifah prinsipinin dayandığını bir daha təsdiq edir.

Beləliklə, növbəti sosial islahat paketinin həyata keçirilməsi ölkədə əhalinin rifah halının və sosial təminatının və həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində əvvəlki illərdə aparılan sosial qayğı strategiyasının mühüm tərkib hissəsi hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# Yeni vergi güzəştləri

## Mədəniyyət sektorunda yeni güzəştlər tətbiq olunacaq

Vergi Məcəlləsində edilmiş yeni dəyişikliklər mədəniyyət sektorunda bir sıra vergi güzəştlərini nəzərdə tutur. 2025-ci ilin 1 iyul tarixindən etibarən qüvvəyə minən dəyişikliklərə əsasən, teatr tamaşaları, muzey və sərgi biletləri, simfonik orkestr, film nümayişi sahəsində alınmış xidmətlərə görə yalnız nağdsız qaydada ödənilən ƏDV-nin 50 faizi (“ƏDVcashback”) geri qaytarılacaq, digər sahələrdə olduğu kimi mədəniyyət xidmətləri üzrə də keşbeklər tətbiq olunacaq. Digər dəyişiklik mədəniyyət sektorunda 5 il müddətinə torpaq vergisindən tam, mənfəət və ya gəlir vergisindən 90 faiz azadolma ilə bağlıdır. Eyni zamanda, mənfəət (gəlir) vergisi üzrə güzəştin həddi artırılaraq 75 faizdən 90 faizə çatdırılacaq. Həmçinin güzəşt verilən subyektlərin sayı 1-dən 5-ə yüksələcək. Həmin güzəştlərdən istifadə edənlərin siyahısına teatr, muzey, simfonik orkestr və film prodüseri də əlavə olunur.

Yeni dəyişikliklərin məqsədi daha çox sərmayələr cəlb etməklə mədəniyyət və incəsənət sektorunun inkişafını stimullaşdırmaq, eyni zamanda, bu sahələrdə bir sıra xidmətlərin xərclərini azaltmaq, eləcə də bu tipli xidmətlər üzrə qiymətlərin aşağı düşməsini təşviq etməkdir.

### ƏDV güzəştləri ilə bağlı əsas istiqamətlər

Ölkəmizdə yürüdülən vergi siyasətinin başlıca istiqamətlərindən biri “kölgə iqtisadiyyatı”nın əhatə dairəsinin azaldılması, dövriyyələrin şəffaflaşdırılması və nağdsız əməliyyatların daha da stimullaşdırılmasıdır. Bu siyasətə uyğun olaraq davamlı şəkildə ƏDV-nin geri qaytarılması ilə bağlı güzətlərin əhatə dairəsi genişləndirilir. 2025-ci ildə bu məqsədlə əlavə addımlar atılıb. Belə ki, Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərin geniş turizm potensialına malik olması nəzərə alınaraq, mehmanxana xidmətlərinə görə ödənilən ƏDV-nin istehlakçılara geri qaytarılmasına başlanıb. Həmin ərazilərdə yerləşən mehmanxanalar tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 30 faizi, nağd qaydada ödənilmiş ƏDV-nin isə 5 faizi fiziki şəxs olan istehlakçılara geri qaytarılır.

Həmçinin daha əhatəli vergi güzəştləri çərçivəsində 2025-ci il yanvarın 1-dən müddəti bitən bir sıra güzəştlərin müddəti yenidən uzadılıb. Kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması və həmin məhsulların qiymətlərinin artımının qarşısını almaq məqsədilə onların satışı üzrə ƏDV-nin ticarət əlavəsindən hesablanması rejiminin tətbiqi müddəti yenidən uzadılıb. Bundan başqa, sahibkarlıq fəaliyyətinin, rəqabətədavamlı neft məhsullarının istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədilə iri



neft emalı zavodlarının modernləşdirilməsi işləri nəzərə alınaraq onlar tərəfindən avadanlıqların və materialların idxalı ƏDV-dən azad edilib. Eləcə də, ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsalı məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı da ƏDV-dən azad olunub. Həmçinin, tibb turizminin inkişafı üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə “tax-free” rejimində ƏDV-nin geri qaytarılması, sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələri və əmlaklar üzrə vergidən azad edilib.

ƏDV ilə bağlı güzəşt paketində digər bir bölmə qeyri-rezidentin sifarişi əsasında gəmiçilik müəssisələri tərəfindən dəniz və su nəqliyyatı vasitələrinin, hidrotexniki qurğuların təmiri üzrə xidmətlərin sıfır dərəcə ilə vergiyə cəlb edilməsidir. Bundan başqa, xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri 2025-ci ilin yanvarın 1-dən etibarən 2 il müddətinə yol vergisindən azad edilib.

### Əcnəbilər ƏDV-ni geri ala biləcəklərmi?

Qeyd edək ki, ƏDV-nin geri qaytarılması ölkə vətəndaşları ilə yanaşı, əcnəbilərə də şamil olunur. 2025-ci il yanvarın 1-dən Vergi Məcəlləsinin 165.3-cü maddəsində edilmiş dəyişikliyə əsasən, cari ildən etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallarla yanaşı, tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərdən alınmış tibbi xidmətlərə görə də nağdsız ödənişlər üzrə ödənilmiş ƏDV məbləği geri qaytarılır.

*ELBRUS CƏFƏRLİ*

# Natiq Məmmədli yaradıcılığı: həyat eskizləri realist, magik, postmodern, absurd güzgüdə



Natiq Məmmədli imzası ədəbiyyatsevərlərə yaxşı tanış olan və sevilən imzadır. Onun "Ləyaqət düsturu" (hekayələr toplusu, 2012), "Körpüdə ümid" (roman, 2014), "Qəhrəmanım sənsən" (hekayələr toplusu, 2020), "Sev" (roman, 2021) kitabları işıq üzü görüb.

Natiq Məmmədlinin hekayələri mövzu rəngarəngliyi qədər dinamikası ilə də seçilir. Yazıçının hekayələri nəinki oxucu rəğbəti qazanıb, həm də yerli və beynəlxalq müsabiqələrdə ədəbiyyatımızı layiqincə təmsil edən bədii mətnlər kimi də ədəbiyyat tariximizə daxil olub. "Dolma" hekayəsi 2010-cu ildə Nəsimi Milli Ədəbiyyat mükafatına layiq görülüb. "Bekketə salam" hekayəsi 2014-cü ildə türkdilli ölkələrin yazarları arasında keçirilən Mahmud Kaşğarlı beynəlxalq hekayə müsabiqəsinin milli seçim turunda ikinci mükafatı qazanıb. Natiq Məmmədli ədəbi gündəmimizdə aktual olan mövzulara öz baxış bucağından yanaşmağı bacaran nasirdir. Onun "Şuşa dumanı" hekayəsi Vətən müharibəsindəki zəfərimizdən öncə qələmə alınıb və hekayədəki işğalda olan Şuşa obrazı həmin dövr ədəbiyyatında təzahür edən analoji təsvirlərdən fərqlənir, yazıçı məlum həsrətin tam fərqli rakursdan ifadəsini təqdim edir: "Qonum-qonşunun yığışdığı xudmani ad günündə eləcə dizlərini ovuşdura-ovuşdura qalmışdı, zoqqultudan masanın altında ayaqlarını qoymağa yer tapmırdı, barı durub gəzişməyə imkan olsaydı, sızıltıları bekara səngiyərdi. Axı hara gedəsən: nəzir-niyazla tapdığın gözünün ağı-qarası nəvənin beş yaşı ola, tifil sevincindən özünü qoymağa yer tapmaya, neçə ildən sonra bu qədər dost-tanışı bir yerdə görəsən, axırda da qayıdasan, siz oturun mən gəzişib gəlirəm, heç olan iş deyildi. Məclis də ki nə məclis - elə bil hamı sözü bir yerə qoyub ömürləri boyu məşq elədikləri bir pərdəli komediyanı növbəti dəfə oynayırdılar, hərə bir cürə artistlik edirdi, təki uşağın könlü xoş olsun. Uşaq neyləsin axı, bu qaçhaqaç dünyasına mayın 7-də göz açıb, sabahsa Şuşanın gedən günüdü... Loxması boğazında kilidlənən məğlub şəhərin sakinlərinin əllərindən nə gəlirdi artistlikdən savayı..."

Ömrünün professional məqamını jurnalistika ilə bağlayan Natiq Məmmədlinin obrazlar qalereyasında media, jurnalistika, qəzetçiliklə bağlı obrazlar özünəməxsus yer tutur. Yazıçının "Yiyəsiz baş" hekayəsi də bu qəbildəndir. Hekayədə əsas vurğulanan məqam jurnalist etikası, peşəkarlıq və "xəbər ovu" kəsişməsidir. Xəbərin məna yükü, ictimai önəmi, dəqiqlik, qərəzsizlik şouya, qeyri-dəqiq "sürətli" məlumata uduzanda, jurnalistika öz yerini, sözün əsl mənasında, "xəbərçiliyə" verir, "qulaqdan-qulağa" adlı oyundakı kimi məlumatın ilkin mahiyyəti silinir, küyə çevrilir. Hekayədə məhz bu cür antiqəhrəman "jurnalist"lə qarşılaşırıq: "Mənsə jurnalist idim. Yayın iki aylıq mənasız "quraqlığından" sonra nəhayət, avqustun əvvəlində insan başının tapılması xəbəri bütün manşetlərdə asılıb qalan müstəsna hadisəyə çevriləcəkdi. Əgər qabağa düşüb, şefimin sözü olmasın, xəbəri yaxşıca "qazıb" bütün reytinqləri dağıda bilsək, heç şübhəsiz, reklamçılar da öz məhsullarını tanıtmaq üçün məhz bizi seçəcəkdilər. Qadın alt paltarından tutmuş kişi corabları, uşaq bezindən tutmuş saqqız çeşidlərinə qədər cürbəcür reklamlar insan başının kəsilməsi xəbərini daha yaxşı "qazıyacaq" qəzetə axacaqdı. Qəzet demişkən, qovurduğu tumlarını qəzet kağızına büküb satan qoca kişi rəhmətə gedəndən və isti noxudu müştərilərinə qəzetdən düzəldilmiş üçkünc lülələrdə verən axırıncı "pivnoy" bağlanandan sonra bizim şefimiz də kağız qəzeti elektron formata dəyişməklə zamanın müasir çağırışlarına cavab verdi. İndi biz saytda işləyirik; bu, daha rahatdı, xəbərləri avtobusda, metroda, yol kənarında, bir sözlə, harda gəldi yazıb, elə həmən anda da sayta yerləşdiririk, əlavə məsrəfə ehtiyac qalmır". Əslində, hekayənin adındakı "yiyəsiz baş" ifadəsi mətndə təsvir olunan qətl hadisəsi ilə deyil, bu cür qeyri-peşəkar jurnalistlərlə bağlıdır. Peşəkarlığı xırda məişət məmnunluğuna dəyişəndə mükəmməl xəbər, məlumat hazırlamaq qabiliyyətinə malik jurnalist də öz mənəviyyatını qurban verərək, sadəcə ağlın, düşüncənin, istedadın tərk etdiyi "yiyəsiz başa" çevrilir.

Natiq Məmmədlinin "Körpüdə ümid" adlı debüt romanı baş qəhrəman olan Ümid adlı uşağın məsumluğu və Pirdəlinin "dəliliyi" prizmasından gerçəkliyin dərki kimi fəlsəfi bir məqamı bədii kontekstdə işıqlandırır. Müəllif uşaqla Pirdəlinin başqaları üçün əlçatmaz olanı görüb-eşitməsinə imkan verən dünyagörüşünün saflığını ruhuna maddi dünyanın kəsafəti hopmuş insanların çirklənmiş dünyagörüşü ilə qarşı-qarşıya qoyur. Romanda cəmiyyətin qanunlarına kor-koranə boyun əyərək öz fərdiyyətini itirən insanın maddi həyata uyaraq şüurun diktə etdiyi qanunlara tabe olmaqla mənəvi ilə, təhtəlşüurla əlaqəni itirməsi vurğulanır. Bu çərçivəyə, qılafa sığmayanlar cəmiyyət tərəfindən "dəli" elan edilir və rədd edilir. "Hünərin var hamı kimi yox, öz düşündüyün kimi yaşamağa cəhd elə... xırdaca bir cəhd... Bu torpaqdan güc alan adamların icad eləyib əsrlərdən bəri qoruduğu, adına adət-ənənə dedikləri qayda-qanunlara buynuz göstərmək bir yandan səni fərqli edəcək, o biri yandan isə hətta ən yaxın doğmalarının arasında belə təkləyəcək, əvvəl-axır kürəyini yerə vuracaq". Təhtəlşüurun qanunları ilə yaşayan, şüuru inkar edən Pirdəli obrazı bu sosial normaya müqavimət simvoluna çevrilir, dünyanın "normal" və "doğru" qavranılması arasındakı faciəvi ikitirəliyi vurğulayır.

Realizmlə magik realizmin qovuşağında dayanan "Körpüdə ümid" romanı idrakın mahiyyəti haqqında, maddi dəyərlərin hökmran olduğu dünyada ruhun saflığını qoruyub-saxlamaq barədə düşünməyə dəvət edir, bəzən həqiqəti görmək üçün şüur və eqo buxovlarını bir kənara ataraq dünyaya saf bir ruhla, "üçüncü göz"lə baxmağa çağırır. Natiq Məmmədlinin "Körpüdə ümid" romanı 2018-ci ildə Türkiyədə də işıq üzü görüb. "SahilKitab" nəşriyyat evi tərəfindən çap olunan kitabın redaktoru və türk dilinə uyğunlaşdıranı Qönçə Aydəmirdir. "Körpüdə ümid" romanı 2015-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəsr nominasiyası üzrə "Qızıl kəlmə" mükafatını alıb.

Natiq Məmmədlinin 2021-ci ildə çap olunmuş, "Yalnız sevənlər anlar" epiqrafı ilə oxuculara təqdim edilən "Sev" romanı iki gəncin məhəbbət hekayəsi fonunda insanın mənəvi seçimlərinin təzadlı dünyagörüşləri, dini doqmalar, nəfs və savaşlar kontekstində necə formalaşdığının bədii planda həllini təqdim edir və əsərdə istənilən məqamda sevgini seçmənin, ona sayğı ilə yanaşmanın insanlığın gələcəyə miras kimi ötürə biləcəyi bəşəri dəyərlərdən ən önəmlisi olduğu vurğulanır. Romanın qəhrəmanları olan fərqli dinlərə və mədəniyyətlərə mənsub iki gənc - Səid və Müjdə sevgilərinin həyəcanını hiss etdikləri ilk andan daxili mənəvi çəkişmə, sevgi və vətən arasında seçim, ailəvi münaqişələr, cəmiyyətin gözləntiləri, dini qadağalar, milli kimlik kimi dərin konfliktlərlə üzləşirlər. Əsər 2018-ci ilin yanvar ayında Bakıda miqrasiya xidmətində işləyən əsas narratorun düşüncələri ilə başlayır. Ölkəsindən sığınacaq istəyən bir gənci qəbul edən, onun hekayətini diqqətlə sənədləşdirən qəhrəmanın daxili düşüncələri müraciət edən şəxsin vəziyyətinə rəğbət yönündədir. O, sığınacaq istəyən gənclərin işi ilə bağlı qərarı gözləyərkən müsahibənin təfərrüatlarını yaddaşında vərəqləyir, hər sözü, jesti təhlil edir və səylərinin nəticəsiz qalmayacağına, sevginin, ədalətin qalib gələcəyinə ümid edir. Məhz Sarı Qarayev adlı bu məmurun öz yazıçı dostuna Sədi və Müjdə sevgisini nəql etməsi ilə yeni, interkultural kontekstli bir sevgi romanı yaranır. Romandakı hadisələrin müxtəlif məkanlarda - Bakı, Banqkok və Şri-Lankada cərəyan etməsi mövzunun müxtəlif mədəniyyətlər və sosial kontekstlərdə açılmasına imkan verir. Natiq Məmmədli romanda "Yaxşı və Aşıq" məhəbbət dastanımızla paralellər aparır, lakin bu paralellər fərqli bədii priyomla gerçəkləşdirilir. Məhz adını Sarı Aşıqdan alan miqrasiya məmurunun - Sarı Qarayevin bu sevgi hekayətinin qəhrəmanları ilə rastlaşmasındakı təsadüfün sirri vasitəsilə Müjdə Səid məhəbbətinin sakura möcüzəsini buta verilmiş aşiqlərin dastanının mistik gücü ilə birləşdirir. Səidi öz Müjdəsinə məhz haqq aşiqi Sarı Aşıq real-irreal kontekstdə qovuşdurur: "- Mən məcbur oldum, Müjdə. Heç demə, Siqiriyadan sağ çıxmamalı idim. Əmr beləymiş. Bilirsən, o qalaya necə nifrət edirəm, elə məni öz nifrətimlə də boğub öldürmək istəyirdilər. Dadıma Sarı Aşıq yetdi. Elə səni tapmaq üçün də yolu mənə o göstərdi. - Nələr deyirsən? Nədən danışırsan, əzizim? - Ağlınla fikirləşmə, Müjdə, məntiqi bir kənara at, sən demə, məntiq çoxdan ölübmüş, sadəcə, heç kimin bundan xəbəri yoxdu. Qəlbinin səsini dinlə. Aşıq məni qalanın sirli yollarından keçirdi, sonra dedi ki, burnuma dəyən Sakura ətrinin dalınca düşüb getsəm, səni taparam. Və bir daha heç vaxt, heç vaxt yanından ayrılmayacağam".

Beləliklə, milli mifologiya və folkorumuzun haqq aşığı anlayışı, mistikası məhəbbətin ölümsüzlüyünü interkultural səviyyədə reallaşdırır. "İlıq yaz günəşinin Həkəri çayını cana gətirdiyi, dərələrdə güllü xalça sərdiyi xoş günlərin birində haqq aşığının ziyarətinə getməyi qərara aldım. Hamını qabaqlamaq üçün tələsirdim. Lakin demişdim axı, heç də hər şey bizim əvvəlcədən düşündüyümüz kimi getmir. Onlar artıq ordaydılar. Tək məni yox, dünyanın bütün sevənlərini qabaqlamışdılar. Səidlə Müjdə Sarı Aşığın viran qoyulmuş türbəsinin dayandığı təpəlikdən mənə əl edirdilər. Güllü yamacda atılıb-düşən mavi gözlü körpənin gülüşü isə Həkərinin büllur sularına qarışıb sevgiyə susamış diyarlara tərəf axırdı. Mən öz yazdıqlarıma inanıram. Sevgiyə söykənərək, ona inanaraq yazmaq tamam ayrı hisdir. Yalnız sevənlər anlar..."

Natiq Məmmədlinin "Sev" əsəri postmodern poetika, mistik realizm elementləri, realist həyat lövhələri, irfan-folklor obrazları və fəlsəfi qatlarla zəngin polifonik roman kimi müstəqillik dövrü ədəbiyyatımıza daxil olmuşdur.

Yaradıcılığı mövzu, janr, ədəbi cərəyan baxımından rəngarəng olan Natiq Məmmədli dramaturgiyada da öz qələmini sınamışdır. Natiq Məmmədli nəsrində təzahürlərini izlədiyimiz absurdizm onun dramaturgiyasında daha ardıcıl şəkildə izlənilir. Onun "Dumana bürünmüş" (2016), "Əmanət" (2017), "Müqəvva" (2018) pyesləri Azərbaycan absurd teatrının fonduna daxil olan dəyərli ədəbi nümunələrdir. Bu pyeslər içində "Dumana bürünmüş" pyesi xüsusilə seçilir. Müəllifin özü də müsahibələrinin birində bu pyesin yaradıcılığında özəl yeri və önəmini vurğulayır: "Bu pyes Şuşanın azad olunmasından yeddi-səkkiz il əvvəl yazılıb. Orada da insanlar Qalaya - Şuşaya qayıtmaq istəyirlər. Həmin insanlar qalalarını itirdikləri üçün özlərini də itiriblər. Qalaya qayıtmaq istəyən insanlar ora dumanla qayıdırlar. Duman, ümumiyyətlə, mənim çox sevdiyim bir elementdir. Bu element mənim çox köməyimə gəlir. Ədəbiyyatda duman elementi çox işlənib. Kafkanın əsərlərində Praqa dumanı var, rus ədəbiyyatında Peterburq dumanı var, ingilis ədəbiyyatında London dumanı var. Mənim ən çox sevdiyim duman öz dumanımızdır, Şuşa dumanıdır. Bu dumanın yaradıcı gücü digər dumanlardan heç də az deyil" (Yaradıcı insan özünü təkrar edirsə o dayanmalıdır: "Müstəqillik dövrü Azərbaycan yazıçısının yaranmaqda olan obrazı hələ ki sovet yazıçısı obrazına uduzur" /N.Məmmədli; söhbətləşdi: E.Qaragözova // Olaylar.-2024.- 5-18 aprel, №12.- S.15, 17.) Qeyd edək ki, bu pyes 2017-ci ildə "Səda" tədris teatrında Mədəniyyət və İncəsənət Universitetinin Musiqili teatr aktyoru fakültəsinin ikinci kurs tələbələrinin iştirakı ilə səhnələşdirilib.

Natiq Məmmədlinin yaradıcılığı bir kaleydoskop kimi həm varlığa dair dərin fəlsəfi düşüncələri, həm də gündəlik həyatın realist eskizlərini əks etdirir. Onun əsərlərində realizm absurdizmlə, postmodernlə, magik realizmlə yanaşı təzahür edir, bədii palitrasındakı parlaq çalarlar müxtəlif yaş kateqoriyasına aid olan, fərqli peşə sahiblərinin daxili aləmini, hisslərini ustalıqla bədii mətnə çevirir.

**"Ədəbiyyat qəzeti"**
**28.06.2025**



*Elnarə QARAGÖZOVA*

# Qlobal istiləşmə iqtisadiyyata zərər vurur

## Dünya Bankı əmək bazarında ciddi itkilərin yaranacağını ehtimal edir

**Dünya Bankı (DB) qlobal istiləşmənin planetə ekoloji fəsadları, o cümlədən iqtisadi-sosial təsirləri barədə uzunmüddətli ehtimallarını açıqlayıb. Bankın Qlobal Fəlakət Riskinin Azaldılması Fondu ilə birlikdə hazırladığı "Dözülməz: Avropa və Mərkəzi Asiya şəhərləri daha isti gələcəkdə necə yaşaya və inkişaf edə bilər" adlı hesabatında qeyd edilir ki, Avropa və Mərkəzi Asiya regionu ölkələri davamlı şəkildə temperatur artımı ilə üzləşir və bu, yaxın onilliklərdə istilərlə bağlı ölüm hallarının üç dəfə artmasına səbəb olacaq. Temperatur artımları demoqrafik böhranla yanaşı, bu bölgə ölkələrində əlavə dəyər zəncirini pozacaq və 2050-ci ilə qədər regionun illik ÜDM-nin 2,5 faiz azalması ilə nəticələnəcək.**

### Temperatur artımı regionda 87 mindən çox iş yerini qapadıb

DB-nin proqnozlarına görə, ekstremal isti hava şəraiti nəqliyyatın işində maneələr törədir, enerji sistemlərində yüklənmələrə səbəb olur, quraqlıq və yanğınları gücləndirir. Eyni zamanda, havanın keyfiyyətini pisləşdirir, xüsusilə tikinti, nəqliyyat və turizm kimi sahələrdə istehsal həcmlərini və əmək qabiliyyətini azaldır. Bu isə əhalinin 70 faizindən çoxunun yaşadığı həmin regionun böyük şəhərlərində isti günlərin sayı əsrin ortalarına qədər üç dəfədən çox arta bilər. Cənubi Avropa və Türkiyə xüsusilə həssas olacaq bəzi şəhərlərdə isti hava şəraiti hər il 40-70 gün daha çox davam edə bilər.

Dünya Bankınının Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Sameh Vahba qeyd edib ki, istilik dalğaları şəhərləri yaşamaq üçün daha az əlverişli edir. Belə hava şəraiti xüsusilə yaşlı insanlar, uşaqlar və yoxsul əhali təbəqələri üçün çətinlik yaradır, ölüm riskləri artır. DB ilə partnyorluq edən Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatlarına görə, son illərdə qlobal istiləşmə iqtisadi və sosial sahəyə mənfi təsirlərini artıraraq əmək bazarını da sarsıdır. Belə ki, 2023-cü ilə qədər regionda temperatur artımı səbəbindən 87 mindən çox iş yeri itirilib. Onlardan 22 min 200-ü Özbəkistanda, 17 min 800-ü Azərbaycanda, 16 min 100-ü Türkiyədə qeydə alınıb.

Qlobal istiləşmənin 2030-cu ilə qədər Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı proqnozunda bildirilir ki, əmək bazarına ölkədə bütün iş saatlarının 0,38 faizi itirilib. Ölkənin şəhərlərində sektorlar üzrə itkilər isə tikintidə 0,76 faiz, sənayedə 0,36 faiz, xidmət sektorunda 0,8 faiz təşkil edib. Proqnozlara görə, 2030-cu ildə Azərbaycanda xidmət sahəsində iş saatlarının 1 faizi, sənayedə 3 faizdən çoxu, tikintidə isə 7 faizə qədəri itirilə bilər.

Dünya Bankı itki riskini azaltmaq üçün artıq bu gün uyğunlaşma tədbirlərinin tətbiq edilməsini tövsiyə edir. Bunlara erkən xəbərdarlıq sistemləri, həssas rayonlarda sərinləmə mərkəzləri, istiyə davamlı tikinti materialları və iqlimyönümlü şəhərsalma planlaması daxildir.






### Azərbaycan qlobal birliyi sıfır CO2 emissiyasına çatmağa çağırır

Azərbaycan hökuməti DB, BMT və digər beynəlxalq qurumların tövsiyələrinə ciddi yanaşaraq qlobal istiləşmənin təsirlərinin azaldılması üçün sistemli tədbirlər həyata keçirməkdədir. 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq hədəfi seçən Azərbaycan enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq, bərpaolunan enerji mənbələrini də daim diqqət mərkəzində saxlayır. Ölkəmiz ilk növbədə, enerji hasilatında yaranan qalıq yanacaqların səviyyəsini azaltmaq üçün xüsusi strateji plan hazırlayaraq həyata keçirməkdədir. Azərbaycan enerji mənbələrinin şaxələndirilməsi və istixana qazı emissiyalarının azaldılması ilə bağlı üzərinə götürdüyü beynəlxalq öhdəliyə məsuliyyətlə yanaşaraq emissiyanı 1,5C-ə qədər azaltmaq üçün səylərini artırır. Günəş, külək enerjisi, termal sular və digər bərpaolunan enerji mənbələrinə sərmayə qoymalda, bu sahədə xarici şirkətlərlə birgə layihələr icra edir. Qarabağ və Şərqi-Zəngəzurun, Naxçıvanın "Yaşıl Enerji" zonası elan edilməsi bu hədəflərə çatmaqda əsas planlardan biridir.

Respublikamız, həmçinin bu məqsədlərə nail olmaq üçün qlobal səyləri artırır. COP29 çərçivəsində sıfır CO2 emissiyasına çatmaqda yeni iqlim platforması yaratmaqla nümunəvi ölkə olduğunu nümayiş etdirdi. Bütün bu addımların hər biri məhz DB-nin irəli sürdüyü təhlükəli iqlim problemləri ilə üzləşməmək üçün vaxt itirmədən həyata keçirilən strategiyadan irəli gəlir.

*E.CƏFƏRLİ*

# Azərbaycanın intellektual brendi...

## "ASAN xidmət" modelini tətbiq edən ölkələr sırasına Ruanda da qoşulub

**Azərbaycanın dinamik inkişafı, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə dövlət idarəçiliyi sisteminin adekvat şəkildə təkmilləşdirilməsini, bu sahədə səmərəliliyin yüksəldilməsini şərtləndirir. Respublikamızda aparılan islahatların mühüm bir qolu məhz institusional sferanı əhatə edir. Həyata keçirilən islahatlar çərçivəsində ölkədə keyfiyyətcə yeni idarəetmə strukturunun formalaşdırılması, xüsusilə vətəndaşlara ictimai xidmətlərin göstərilməsində inklüzivliyin təmin olunması böyük aktuallıq kəsb edir.**

### Vətəndaşlara şəffaf xidmət nümunəsi

Qeyd edək ki, vətəndaşların bütün sahələrdə tam keyfiyyətli xidmətlə təmin olunması məsələsi də daim dövlətin diqqət mərkəzindədir. Bu kontekstdə, dövlət orqanları tərəfindən əhaliyə bir çox xidmətlərin vahid məkandan, daha keyfiyyətli, həmçinin rahat həyata keçirilməsi məqsədi ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət (Azerbaijan Service and Assessment Network)" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, "ASAN Xidmət"in timsalında ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Ölkəmizin intellektual məhsulu olan "ASAN xidmət" mərkəzləri yaradılanda əsas niyyət insanlar üçün gözəl, rahat və şəffaf xidmət təşkil etmək olub. Və qarşıya qoyulan məqsədlərə də nail olunub.

Azərbaycanın milli brendi olan "ASAN Xidmət"in uğurlu fəaliyyətinin nəticəsidir ki, bir çox ölkələr bu təsisata kifayət qədər böyük maraq göstərir. Artıq bir sıra ölkələr "ASAN xidmət" təcrübəsini tətbiq edir. Onların arasında Afrika qitəsini təmsil edən dövlətlər də var. "ASAN xidmət" modelini tətbiq edən ölkələr sırasına Ruanda da qoşulub. Bu barədə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkəyə səfər edib.



### Anlaşma Memorandumu əsasında...

Səfər çərçivəsində Ruandanın İnkişaf Şurası, Ruandanın dövlət xidməti naziri, eləcə də digər aidiyyati qurumların rəhbər vəzifəli şəxslərinin iştirakı ilə görüş keçirilib. Dövlət Agentliyinin sədri tərəfindən "ASAN xidmət", həmçinin Dövlət Agentliyinin digər fəaliyyət istiqamətləri ilə əlaqədar geniş təqdimat edilib. Görüşdən sonra Dövlət Agentliyi ilə Ruandanın İnkişaf Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Məqsəd "ASAN xidmət" təcrübəsinin Ruandada tətbiqidir. Anlaşma Memorandumunun implementasiyası çərçivəsində "ASAN xidmət" təcrübəsi əsasında Ruandada dövlət xidməti mərkəzinin yaradılması planlaşdırılır.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının ölkəmizdə baş tutmuş 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ruanda Prezidenti Pol Kaqame arasında keçirilmiş görüş zamanı qarşı tərəf "ASAN xidmət" təcrübəsinin Ruandada tətbiqində maraqlı olduğunu bildirib və bu çərçivədə Ruanda nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Qeyd edək ki, bu yaxınlarda "ASAN xidmət" modeli əsasında Efiopiyada da "MESOB" dövlət xidməti mərkəzi yaradılıb. Əddis-Əbəbə şəhərində yerləşən və 8 mərtəbədən ibarət olan "MESOB" mərkəzində pilot mərhələdə 20-yə yaxın dövlət qurumu və bir sıra özəl təşkilatlar tərəfindən, ümumilikdə 120-dən çox xidmət təqdim olunur. Mərkəzin infrastrukturuna xidmət masaları, məlumat məntəqələri, gözləmə otaqları, özünəxidmət nöqtələri, çağrı mərkəzi və uşaq guşəsi daxildir.

### Esvatini, Qana, Qambiya, Maldiv də bu modelə maraq göstərir

Bundan əlavə, Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində yerləşən Afrika İttifaqının mənzil-qərargahında "İdarəetmə innovasiyası: hər kəs üçün çevik, inklüziv və insanyönümlü xidmətlərin təkmilləşdirilməsi" adlı regional forum da keçirilib. Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı, eləcə də, Afrika İttifaqı və Efiopiya Federativ Respublikası Hökumətinin tərəfdaşlığı ilə reallaşdırılan tədbir 10-cu Afrika Dövlət Xidmətləri Günü münasibətilə keçirilən konfrans çərçivəsində təşkil olunub. Forumda 30-dan çox ölkədən və beynəlxalq təşkilatdan 100-ə yaxın aidiyyəti dövlət qurumunun rəhbər şəxsləri, beynəlxalq təşkilatların rəsmiləri və ekspertlər iştirak edirlər. Forum çərçivəsində Esvatini, Qana, Qambiya, Maldivin müvafiq sahə üzrə fəaliyyət göstərən dövlət qurumlarının rəhbərləri və yüksək vəzifəli rəsmiləri ilə görüşlər keçirilib. Görüşlər zamanı müvafiq ölkələrdə "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə əlaqədar ilkin razılığa gəlinib.

Qeyd edək ki, vətəndaşların bütün sahələrdə tam keyfiyyətli xidmətlə təmin olunması məsələsi də daim dövlətin diqqət mərkəzindədir. Bu kontekstdə, dövlət orqanları tərəfindən əhaliyə bir çox xidmətlərin vahid məkandan, daha keyfiyyətli, həmçinin rahat həyata keçirilməsi məqsədi ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət (Azerbaijan Service and Assessment Network)" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, "ASAN Xidmət"in timsalında ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Ölkəmizin intellektual məhsulu olan "ASAN xidmət" mərkəzləri yaradılanda əsas niyyət insanlar üçün gözəl, rahat və şəffaf xidmət təşkil etmək olub. Və qarşıya qoyulan məqsədlərə də nail olunub.
Azərbaycanın milli brendi olan "ASAN Xidmət"in uğurlu fəaliyyətinin nəticəsidir ki, bir çox ölkələr bu təsisata kifayət qədər böyük maraq göstərir. Artıq bir sıra ölkələr "ASAN Xidmət" təcrübəsini tətbiq edir. Onların arasında Afrika qitəsini təmsil edən dövlətlər də var. "ASAN xidmət" modelini tətbiq edən ölkələr sırasına Ruanda da qoşulub. Bu barədə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkəyə səfər edib.
Esvatini, Qana, Qambiya, Maldiv də bu modelə maraq göstərir

*Nardar BAYRAMLI*

# Ermənistan nüvə tullantıları təhdidi formalaşdırır

## İrəvan Parisin əli ilə Cənubi Qafqazın ekologiyasını çirkləndirməyə hazırlaşır

30 ilə yaxın bölgədə terror təhdidi formalaşdırmış, işğalçı siyasət yürütmüş Ermənistan indi də cənubi Qafqaza və ümumilikdə, regiona ekoloji təhdid yaradır. İşğal dövründə Azərbaycanın fauna və florasına qarşı barbar münasibət sərgiləmiş, meşələri yandırmış, çayları çirkləndirmiş Ermənistan bu dəfə daha təhlükəli bir addım atır - İrəvan Azərbaycanla sərhəd ərazilərə nüvə tullantılarının basdırılması ilə bağlı razılığa gəlib. Belə ki, "Environmental Protection First (EPF)" Koalisiyası Fransanın urantərkibli radioaktiv tullantıları Ermənistanın Azərbaycanla şərti sərhədinə yaxın ərazilərə yerləşdirməsi ilə əlaqədar bəyanat yayıb.




**Sövdələşmənin "mükafatı"...**

Bəyanatda bildirilir ki, "Biz - "Environmental Protection First (EPF)" Koalisiyasının üzvləri Fransanın nüvə yanacağı nəhəngi - "Orano" dövlət şirkətinin urantərkibli radioaktiv tullantılarının bir hissəsini Ermənistanın Azərbaycanla şərti sərhədinə yaxın ərazilərə yerləşdirməsini Azərbaycana qarşı yeni ekoloji müharibə kimi qiymətləndiririk. Fransa mediasının məlumatlarına (https://courrierfrance24.fr/orano-envoie-secretement-des-dechets-dangereux-en-armenie-et-fait-des-dons-mysterieux-a-une-fondation-liee-au-premier-ministre-armenien) görə, bu prosesə 2025-ci ilin iyununda başlanılıb, nüvə tullantılarının ilk hissəsi artıq Ermənistanın Dilican Milli Parkının ərazisinə yerləşdirilib. Göyçə gölünün şimalında olan bu park bütünlüklə Ağstafa çayının hövzəsində 1100-2800 metr yüksəklikdə yerləşir, su axıntıları Ağstafa çayı vasitəsilə Kür çayına daşınır. Parkın ərazisi Gədəbəy, Tovuz, Ağstafa və Qazax rayonlarına yaxın olduğu üçün bütövlükdə Azərbaycanda biomüxtəliflik təhdid altındadır".

Fransa mediasının araşdırmaları göstərir ki, urantərkibli radioaktiv tullantıların Ermənistana ixrac edilməsi bu ilin fevralında Parisdə Makron-Paşinyan görüşündə razılaşdırılıb, ardınca Paşinyanın arvadı Anna Ankopyanın "Mənim Addımım" Fondunun hesabına bu sövdələşmənin mükafatı olaraq, fransız şirkətindən böyük məbləğdə şübhəli ianələr daxil olub.

**Beynəlxalq aləmə çağırış...**

Sənəddə göstərilir ki, nüvə tullantılarının Ermənistanda seysmik cəhətdən aktiv bölgəyə yerləşdirilməsi təhlükənin miqyasını daha da böyüdür. Belə ki, 18 Atom Elektrik Stansiyasında 56 nüvə reaktoruna malik Fransanın nüvə tullantılarını müstəmləkə regionlarındakı dənizlərə axıtmasının ardınca indi də Ermənistana daşıması bütün dünyanı, o cümlədən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi narahat etməlidir. "Biz Ermənistanın ekoloji təşkilatlarını da bu ekoloji terroru dayandırmaq üçün ayağa qalxmağa çağırırıq. Fransa-Ermənistan cütlüyünün Espoo Konvensiyasının, Biomüxtəlifliyin Qorunması haqqında Konvensiyanın, Transsərhəd Su Resurslarının İstifadəsi və Qorunması haqqında Helsinki Konvensiyasının tələblərinə meydan oxumasına son qoyulmalıdır. Ermənistan hakimiyyəti Fransa mediasında yayılmış məlumatları guya, "dezinformasiya" adlandırsa da, faktı yerində yoxlamağa imkan vermir. Biz - "Environmental Protection First (EPF)" Koalisiyası olaraq, baş nazir Nikol Paşinyanı Azərbaycan QHT-lərinə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin və digər beynəlxalq təşkilatların nümayəndələri ilə birgə Ermənistanın Azərbaycanla şərti sərhədinə yaxın ərazilərdə radiaktiv tullantılarla əlaqədar monitorinq aparmağa şərait yaratmağa çağırırıq", - deyə bəyanatda əks olunur.

**Vaxtilə Afrikanı "nüvə zibilliyi"nə çevirənlər...**

Qeyd edilən məqam olduqca vacibdir - Azərbaycanın vətəndaş cəmiyyətinin nümayəndələrinin bu məsələdəki qəti mövqeyi alqışlanasıdır. Ermənistanın Fransaya nüvə tullantılarını bizim coğrafiyaya daşıması üçün şərait yaratması isə yolverilməz haldır - qeyd edək ki, bundan öncə də Ermənistan sərhəd yaxınlığında "dağ-mədən sənayesi" adı altında ekoloji təhdidlər yaratması etirazla qarşılanmışdı.

Fransaya gəldikdə isə, bu ölkə nüvə tullantılarını və radioaktiv zəhəri fərqli üsullarla "utilizasiya" edib. Məsələn, Fransanın Orano şirkəti (əvvəlki adı Areva) tərəfindən Nigerin Arlit bölgəsində 1978-2021-ci illər ərzində işlədilmiş mədən layihəsində təxminən 20 milyon ton radioaktiv qum və çöküntü yığılıb. Bu tullantılar açıq hava şəraitində saxlanılıb və radon kimi radioaktiv qazların yayılması, toz vasitəsilə əraziyə ziyan yaratması ilə əlaqədar narahatlıqlar yaradıb. Şirkət 2023-cü ildə bu tullantıları bərpa edəcəyini, iki metr qalınlığında suya davamlı örtük tətbiq edəcəyini və ən azı 5 il monitorinq aparılacağını bildirib.

1960-1967-ci illərdə isə Fransanın Əlcəzairin Səhra çölündə həyata keçirdiyi 17 nüvə partlayışının nəticəsində yaranan tullantılar və radioaktiv maddələr torpağa basdırılıb. Əlcəzair hökuməti və beynəlxalq təşkilatlar hələ də bu tullantıların yerinin gizlədildiyini bildirir. Əsas narahatlıq, bu sınaqların qoyduğu radioaktiv izlərin insana və ətraf mühitə uzunmüddətli təsir göstərməsidir. Əlcəzair hakimiyyəti Fransadan izahat tələb etmədədir.

Fransanın bu addımları isə geniş etirazlara səbəb olub. Məsələn, Əlcəzair 2020-ci ildən etibarən bu məsələni beynəlxalq tribunalara çıxarır. Niger vətəndaş cəmiyyəti və ekoloji təşkilatlar - o cümlədən "ROTAB", "Aghir In'man", "Greenpeace Africa" - Fransa şirkəti Oranonun Nigerin Arlit şəhərində 20 milyondan artıq ton radioaktiv tullantını açıq şəkildə saxlamasına etiraz bəyanatları yayıblar. 2023-cü ildə Orano Nigeri tərk etdikdən sonra ictimai narahatlıq daha da artıb: tullantıların "Fransanın mirası" kimi saxlanılması tənqid olunur. Eləcə də Afrika İttifaqı rəsmi səviyyədə radioaktiv və zəhərli maddələri Afrika ərazisinə daşımasına qadağa çağırışı səsləndirib.

Beləliklə, Fransanın indi də Ermənistanın əli ilə Cənubi Qafqazı "nüvə tullantıları bazası"na çevirməyə çalışması yolverilməzdir.

*SADİQ*

# Almaniyada partiyalararası çəkişmə...

## Sağçı-ekstremist partiyanın nüfuzu daha da güclənə bilər

Almaniyada sol-mərkəzçi Sosial Demokrat Partiyası (SPD) ilə ifratsağçı Almaniya üçün Alternativ partiyası (AfD) arasında siyasi çəkişmə dərinləşməkdədir. Belə ki, bu ilin fevralında Almaniyada baş tutan son parlament seçkilərindən sonra Xristian Demokrat (CDU) və Xristian Sosial İttifaqı partiyası (CSU) ilə koalisiya hökuməti quran Sosial Demokrat Partiyasının iyunun 28-də keçirilən qurultayında AfD-nin qadağan edilməsi üçün müvafiq prosedurlara başlanmasına dair qərar qəbul olunub. Almaniya KİV-lərinin məlumatına görə, yekdilliklə qəbul olunan qərarda AfD-nin Konstitusiyaya zidd fəaliyyətini sübut edən dəlillərin toplanması üçün SPD tərəfindən federal və əyalət səviyyəsində fəaliyyət göstərən işçi qrupunun yaradılması əksini tapıb. Lazımi sübutlar toplanacağı təqdirdə AfD-nin qadağan olunması tələbi ilə Konstitusiya Məhkəməsinə müraciət ediləcək. SPD-nin qərarında AfD-nin əcnəbi vətəndaşların gəldikləri ölkələrə geri göndərilməsinə dair tələblərinin Konstitusiyaya və insan ləyaqətinə zidd olduğu bildirilib. Eyni zamanda qərarda partiyanın parlament demokratiyasına etimadı sistemli şəkildə zəifləmə siyasəti yürütdüyü, azad və demokratik konstitusion quruluşu aradan qaldırmağı hədəflədiyi də qeyd edilib. Qeyd edək ki, Almaniya Federal Konstitusiyanın Mühafizə İdarəsi üç il ərzində partiyanın fəaliyyətini araşdırıb və bu ilin mayında AfD-ni insan ləyaqətini pozan və qatı millətçi mövqeyi səbəbindən meyilli təşkilat kimi təsnifləndirib. AfD bu qiymətləndirməyə qarşı məhkəmə iddiası qaldırıb.

Xatırladaq ki, bu ilin fevralın 23-də Almaniyada keçirilən növbədənkənar parlament seçkiləri ölkənin tarixində önəmli siyasi hadisə kimi yadda qaldı. Rəsmi məlumatlara görə, sağ-mərkəzçi CDU-CSU ittifaqı səslərin 28.6 faizini toplamaqla Bundestaqda öz lider mövqeyini geri qaytardı. Son illərdə reytingi yüksək sürətlə artan ifratsağçı Almaniya üçün Alternativ partiyası 20.8 faiz səslə Bundestaqda ikinci böyük partiyaya çevrildi. Bu, təkcə Almaniya üçün deyil, həmçinin ümumi Avropa üçün də şok xəbər idi. 2021-ci ildə seçkilərin qalibi olan Sosial Demokrat Partiyası isə 16.4 faiz səs əldə etməklə son altmış beş ildə çox ağır məğlubiyyətə məruz qaldı - partiya demək olar ki, parlamentdə 120 mandata sahibdir. Son seçkilər sol və liberal cəbhəni təmsil edən partiyalar - Yaşıllar, Sol və Azad Demokrat Partiyası üçün də çox məyusedici oldu. Yaşıllar və Sol partiya 11.6 faiz və 8.8 faiz səs toplamaqla parlamentdə xeyli yer itirdilər. Azad Demokrat Partiyası 4.7 faiz səslə parlamentə daxil ola bilmədi.

**AfD bu halda ləğv oluna bilər**

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, AfD-nin fəaliyyətinə xitam verilməsi Konstitusiya məhkəməsinin qərarından asılıdır.




"Son illərdə Almaniyada qatı sağın güclənməsi fonunda cəmiyyətdə siyasi fraqmentasiya güclənməkdədir. Siyasi partiyalar arasında çəkişmələrin dərinləşməsi bunu aydın sübut edir. Almaniya üçün Alternativ partiyasının Almaniya daxilində, xüsusilə də ölkənin şərq vilayətlərində tərəfdarlarının sayı çoxalmaqdadır. Qeyd edim ki, AfD-nin tərəfdarlarının əksəriyyəti vaxtilə Xristian Demokratlar - CDU-nun tərəfdarları idilər. CDU-nun öz elektoratının tələblərinə uyğun siyasət yürütməməsi və miqrantların ölkəyə kütləvi axınana qarşı etirazların artması səbəbindən qatı millətçi və avroskeptik cəbhənin yüksəlişinə şahidi oluruq", - deyə S.Zahidov bildirib ki, Almaniya Federal Konstitusiyasının Mühafizəsi İdarəsinin AfD ilə bağlı qərarı partiyanın ləğv olunması üçün kifayət deyil: "Bu, Konstitusiya məhkəməsinin qərarından asılıdır. Lakin Konstitusiya məhkəməsi öz qərarını verməzdən əvvəl mərkəzi hökumətin də rəyini nəzərə almalıdır. Əgər məhkəmədə AfD-nin parlamentar demokratiyaya və ölkənin konstitusion quruluşuna qarşı təhdid yaratdığı sübuta yetirilərsə, bu halda partiyanın ləğv olunması ilə bağlı qərar qəbul edilə bilər".

**CDU ilə SPD arasında ziddiyyət**

"Təkcə Sosial Demokratlar deyil, həmçinin Xristian Demokratlar, Yaşıllar və Liberallar da AfD ilə çəkişmə içərisindədir. Sağ-mərkəzçi CDU AfD ilə əməkdaşlığa qarşıdır. Lakin xüsusi bir məqamı nəzərə almaq lazımdır ki, AfD-yə qarşı mübarizədə CDU və SPD-nin yanaşması bir-birilə ziddiyyət təşkil edir. SPD-dən fərqli olaraq, CDU AfD ilə siyasi çərçivədə mübarizənin tərəfdarıdır. Çünki CDU-da hesab edirlər ki, AfD-nin ləğv olunması istiqamətində atılacaq addımlar qatı sağçı partiyanın kütlə içərisində nüfuzunun daha da güclənməsinə gətirib çıxara bilər. CDU belə bir ssenari ilə üzləşmək istəmir. Bu baxımdan AfD məsələsində CDU ilə SPD arasında fikir ayrılıqları dərinləşir. Bu, sözsüz ki, koalisiya hökumətin fəaliyyətinə mənfi təsir göstərə bilər," - deyə S.Zahidov vurğulayıb.

**Almaniyanın Aİ-də liderliyinə ciddi əngəl**

S.Zahidov bildirib ki, həm Avropa İttifaqının, həm də Almaniyanın daxili auditoriyasının maraqlarına uyğun siyasət yürütmək Merts hökuməti üçün o qədər də asan olmayacaq. "Almaniyanın yeni kansleri Fridrix Merts Almaniyanın Avropa İttifaqında siyasi və iqtisadi liderliyini yenidən bərqərar etmək niyyətindədir. Merts hökumətinin xarici siyasətinin əsas prinsiplərindən biri vahid Avropa ideyasını təbliğ etməkdir. Lakin SPD ilə problemlərin yaşanması, o cümlədən ölkə daxilində AfD-nin nüfuzunun daha da möhkəmlənməsi Merts hökumətinin Aİ ilə həmrəy siyasət yürütməsinə mane olacaq. Bildiyimiz kimi, AfD ümumi Avropa anlayışına, xüsusilə də Aİ-nin miqrasiya siyasətinə və Brüsselin Almaniyanın daxili işlərinə qarışmasına qarşı kəskin mövqe sərgiləyir. Bu da AfD-nin ölkə daxilində kütləni öz tərəfinə çəkməsinə təsir göstərir. Belə bir halda Merts hökuməti həm Avropa İttifaqının, həm də ölkənin daxili auditoriyasının maraqlarına paralel şəkildə cavab verən siyasət yürütmək məcburiyyətində olacaq. Bunun üçün indiki hakimiyyət çox çətin proseslərdən keçməlidir".

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Kəngərliyə 6-cı köç!

## “Böyük Qayıdış” davam edir...

İşğaldan azad edilmiş Qarabağ torpaqlarında nəhəng, möhtəşəm layihələrin davam etdirildiyi göz önündədir. Həmin ərazilərimizdə bərpa və yenidənqurma işləri sistemli və planlı şəkildə aparıldığı üçün nəzərdə tutulandan daha sürətli gedir. Məqsəd ölkə başçısının siyasi iradəsi, ordumuzun rəşadəti, eləcə də xalqımızın həmrəyliyi sayəsində 44 gün ərzində işğaldan azad edilən torpaqların əsl sahiblərinin tam şəkildə qayıdışı və firavan yaşayışının təmin edilməsidir.




### Daha 37 ailə yola salındı

Ağdamın yeni həyat başladığı kəndlərindən biri Kəngərlidir. Xatırladaq ki, bu il mayın 10-da Prezident İlham Əliyev Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib, sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim etmişdi.

Kəngərliyə 2-ci köç 20 may 2025-ci il, 3-cü köç 23 may 2025-ci il, 4-cü köç 27 may 2025-ci il, 5-ci köç 18 iyun 2025-ci ildə baş tutub.

Dünən - 30 iyun 2025-ci il tarixində isə Kəngərliyə 6-cı köç reallaşıb. Bu mərhələdə Kəngərli kəndinə 37 ailə - 153 nəfər köçürülüb.

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda ümumilikdə, 50 minə yaxın insan yaşayır.

### Yeni dövrə qədəm qoyan Ağdam!

İşğaldan azad olunmuş ərazilərimizdə infrastruktur layihələrinin sürətlə icra olunduğu torpaqlarımızdan biri Ağdamdır. Ağdamda görülən işləri sadəcə işğaldan azad olunan bir şəhərin yenidənqurulması kimi qiymətləndirmək düzgün deyil. Əslində, indi Ağdamda aparılan işlər, atılan addımlar Azərbaycan dövlətinin əzmini, xalqımızın iradəsini və tarixə olan bağlılığını nümayiş etdirir. Bir sözlə, bugünkü Ağdam dünənin dağıntıları üzərində qurulan sülh, sabitlik və inkişaf şəhəridir.

Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. 1993-cü ilin iyul ayının 23-də Ağdamın işğal tarixini 20 noyabr 2020-ci il qələbə tarixi ilə əvəzlədi. Dövlət başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. Beləliklə, 27 ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalandı.

### Kəngərlidə yeni tarix yazılır...

Ağdamın mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu evlər hər bir ailənin ehtiyacları nəzərə alınaraq tikilib. İki, üç, dörd və hətta beşotaqlı evlər, ailələrin say tərkibinə uyğun şəkildə inşa edilib. Hər bir evin on iki sotluq geniş həyətyanı torpaq sahəsinin olması isə sakinlərin həm öz ehtiyaclarını ödəməsi, həm də kənd təsərrüfatı ilə məşğul olmalarına unikal imkan yaradır. Bu, “ağıllı kənd” konsepsiyasının tərkib hissəsi olaraq məşğulluğun təmin edilməsinə, bölgənin aqrar potensialının inkişafına xidmət edir. Evlər bütün zəruri kommunal xidmətlərlə - fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su və müasir kanalizasiya sistemləri ilə tam təchiz olunub.

Kəngərli kəndinə qayıdış daha böyük və möhtəşəm prosesin, bütün Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi strategiyasının ayrılmaz parçasıdır. Bu, Azərbaycanın postmünaqişə dövründə dünyaya təqdim etdiyi bərpa və quruculuq modelidir. Azərbaycan heç bir xarici maliyyə dəstəyi olmadan, sırf daxili resursları hesabına tarixdə analoqu olmayan miqyasda quruculuq işləri həyata keçirir. Bu proses 2022-ci ilin iyul ayında Zəngilan rayonunun Ağalı kəndi ilə başladı. “Ağıllı kənd” konsepsiyası ilə yenidən qurulan Ağalı, Böyük Qayıdışın ilk müjdəçisi idi. Ardınca Füzuli və Laçın şəhərlərinə, Laçının Zabux və Sus kəndlərinə, Ağdərə rayonunun Talış kəndinə, Cəbrayıl və Şuşa şəhərlərinə, Xocalı şəhərinə və Ağdamın Kəngərli kəndinə köç karvanları bir-birini əvəz etdi. Bu günə qədər artıq on minlərlə keçmiş məcburi köçkün doğma yurd-yuvasına qovuşub. Bu rəqəm bölgədəki ümumi canlanmanın yalnız bir hissəsini əks etdirir...

*Səlim*

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti üzrə hazırlanmışdır**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qohum evliliyinə son qoyan gün!

## Qanunu pozanları hansı cəza gözləyir?

Bu gündən etibarən ölkəmizdə mühüm qadağa qüvvəyə minir. Belə ki, nikahın bağlanmasına mane olan hallar artırılır. Xatırladaq ki, bununla bağlı Ailə Məcəlləsinə dəyişikliklər edilmişdi. Dəyişikliklərdə qeyd olunusb ki, iyulun 1-dən Azərbaycanda qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqlarının, bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızının, həmçinin bibi (xala) və qardaş (bacı) oğlunun nikaha daxil olması qadağan olunur.

Məlumdur ki, bu qərar uzun illərlə müzakirə mövzusu olan genetik risklər və irsi xəstəliklərin qarşısının alınması məqsədi daşıyır. Həkimlər və mütəxəssislər belə nikahların genetik xəstəliklərin yayılmasına səbəb olduğunu bildirirlər.

Bəs qohum evliliklərinin qadağan olunması cəmiyyət tərəfindən necə qarşılanacaq? Qanunun icrası hansı yollarla təmin ediləcək?

**Yalnız qanunlar yox, düşüncələr də dəyişməlidir!**

Sualımızı cavablandıran Milli Məclisin Ailə, qadın və uşaq məsələləri ko-



mitəsinin üzvü İlham Məmmədov bildirib ki, qadağa qüvvəyə mindikdən sonra qanunda bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulur və bu, prosesə öz töhfəsini verəcək bir məsələdir: “Amma qanun məsələni tam tənzimləyəcəkmi, nəticəsi olacaqmı - bunu söyləmək çətindir. Hesab edirəm ki, qanunların dəyişməsi yetərli deyil. İnsanların düşüncəsi, yanaşması dəyişməlidir. Təəssüf ki, hələ də cəmiyyətdə bu cür nikahları müdafiə edən, tərəfdarı olan insanlar var. Yəni insanların düşüncəsi, baxışı, yanaşması dəyişməlidir. Belə olduğu təqdirdə hansısa nəticədən, uğurdan söhbət gedə bilər. Hesab edirəm ki, bu, ciddi bir məsələ olduğuna görə cəmiyyətin təbəqələri, bütün üzvləri belə məsələlərdə fəal olmalıdırlar”.

**Xəstə uşaqlar dünyaya gəlir...**

Deputatın fikrincə, laqeydliyə və biganəliyə yol vermək olmaz: “Cəmiyyətin bir hissəsi qeyd etdiyim kimi, fərqli düşünür, amma cəmiyyətin fərqli düşünməsi əsas deyil. Əsas olan odur ki, qohum nikahlarından çoxlu sayda uşaq xəstə dünyaya gəlir. Yəni bunun saysız faktları var, insanların əziyyət çəkdiyini görürük. Düşünürəm ki, əsas meyar bunlar yox, gələcəyimiz, gənclərin sağlamlığı və onların gələcəyinə yönəlmiş addımlar olmalıdır. Əsas prinsip, məqam kimi bunu nəzərə almalıyıq”.

**Hansı cəza gözləyir?**

Hüquqşünas Nadir Məmmədov qeyd edib ki, 1 iyul 2025-ci il tarixindən sonra qohumların “vətəndaş nikahında” yaşaması üçün nə İnzibati Xətalar Məcəlləsində, nə də Cinayət Məcəlləsində hələ ki hansısa məsuliyyət nəzərdə tutulmayıb: “Sadəcə olaraq həmin şəxslərin nikahı 01.07.2025-ci il tarixdən sonra rəsmiləşdirilməyəcək”.

*Yeganə BAYRAMOVA*

# Bəşəriyyətin yaddaşı...

## 274 yaşlı ilk ensiklopediya və müasir dövr

Müxtəlif məlumatların sistemli şəkildə toplandığı ensiklopediyalar bilikləri nizamlı və ardıcıl olaraq oxucuya çatdıran ən vacib yazılı mənbədir. Hər bir sahəyə aid məlumatları özündə əks etdirmiş bu kitablar bəşəriyyətin yaddaşı rolunu oynayır. Ensiklopediya təkcə sözlük və ya izahlı lüğət deyil, konkret anlayışlar, terminlər və hadisələr haqqında geniş informasiya təqdim edən fundamental məlumat toplusudur. Onun əsas məqsədi insanları müxtəlif sahələrdə maarifləndirmək, onları geniş informasiya ilə təmin etmək və elmi bilikləri əlçatan etməkdir.

### Didronun 25 illik layihəsi




Bu gün dünyanın ilk ensiklopediyasının yaranmasından 274 il ötür. Belə ki, dünyanın ilk ensiklopediyasının birinci cildi 1 iyul 1751-ci ildə nəşr edilib. “İncəsənət və sənətkarlığın ensiklopediyası və ya elmin izahlı lüğəti” adlanan nəşrin ideyası hələ 1747-ci ildə fransız yazıçısı və dramaturqu Deni Didro tərəfindən irəli sürülüb. Didro bu layihənin həyata keçməsinə 25 il vaxt sərf edib.

Qeyd edək ki, nəşr 35 cilddən ibarət olub.

### Ensiklopediyanın növləri

Ensiklopediyalar mövzu baxımından iki əsas kateqoriyaya bölünür: ümumi və ixtisaslaşmış.

Ümumi ensiklopediyalar geniş mövzuları, bir çox sahəni əhatə edən məlumat bazasıdır. Buraya Britannika Ensiklopediyası, Qanuni Ensiklopediya və s. daxil edilə bilər. Bu növ ensiklopediyalar hər bir sahədən əsas anlayışları və mühüm məlumatları təqdim edir.

İxtisaslaşmış ensiklopediyalar isə yalnız bir sahəyə fokuslanır. Məsələn, tibb, hüquq, texnologiya, ədəbiyyat və ya musiqi üzrə ensiklopediyalar yalnız həmin sahədə dərinləşdirilmiş məlumat verir. Həmin ensiklopediyalar əsasən mütəxəssislər və peşəkar istifadəçilər üçün nəzərdə tutulur. Onların dili də daha texniki və sahəyönümlü olur.



### Uşaqlar üçün ensiklopediyalar

Uşaq ensiklopediyaları onların yaş səviyyəsinə uyğun, rəngarəng dizaynlı və sadə dildə yazılmış məlumat toplusudur. Bu cür ensiklopediyalar uşaqlarda erkən yaşlardan bilik və maraq hissinin formalaşmasına kömək edir. Burada təbiət, heyvanlar aləmi, kainat, elm və texnologiya kimi mövzular oyun elementləri ilə birgə təqdim olunur.

Uşaq ensiklopediyaları həm də valideynlər və müəllimlər üçün mühüm maarifləndirici alətdir. Bu nəşrlər uşaqların dünyanı anlama formasını zənginləşdirir və onların düşüncə tərzini inkişaf etdirir. Əsas məqsəd uşaqları maarifləndirmək və müstəqil öyrənməyə təşviq etməkdir.

### Azərbaycanda ensiklopedik fəaliyyət

Azərbaycanda ensiklopedik fəaliyyət XX əsrin ortalarından etibarən sistemli şəkildə inkişaf etməyə başlayıb. Xüsusilə “Azərbaycan Sovet Ensiklopediyası” ölkədə ilk genişmiqyaslı ensiklopedik nəşr kimi tarixə düşüb. Bu ensiklopediya Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, elmi və sənəti haqqında geniş məlumat toplusudur və dövrünün elmi tələblərinə uyğun şəkildə hazırlanmışdı.

Müstəqillik dövründən sonra isə yeni nəsil ensiklopedik nəşrlər işıq üzü gördü. Mədəniyyət, elm, tarixi şəxsiyyətlər və təhsil sahəsində bir çox kitab və ensiklopediya nəşr edildi. Onların arasında uşaqlar üçün hazırlanmış ensiklopedik nəşrlər də yer aldı. Hazırda bu sahədə rəqəmsal platformaların inkişafı ilə ensiklopedik biliklərin çatdırılma üsulları da dəyişib. Müasir dövrdə internet üzərindən çoxsaylı Azərbaycan dilində ensiklopedik resurslara çıxış mümkündür.

### Rəqəmsal ensiklopediyaların üstünlükləri

20-ci əsrin sonlarında fərdi kompüterlərdə istifadə üçün ensiklopediyalar CD-ROM-larda çıxarılırdı. 1993-cü ildə buraxılan “Microsoft”un “Encarta”sı çap olunmuş ekvivalenti olmadığı üçün əlamətdar bir nümunə idi. Məqalələr video və audio faylları, eləcə də çoxsaylı yüksək keyfiyyətli şəkillərlə tamamlanmışdı. 16 ildən sonra 2009-cu ildə “Microsoft”un “Encarta”sının istehsalı dayandırıldı. Yeni ensiklopediya konsepsiyası 1993-cü ildə “Interpedia” təklifi ilə başladı və bu təklif “Usenet”də hər kəsin məzmun yerləşdirə biləcəyi və ona pulsuz daxil ola biləcəyi İnternet əsaslı onlayn ensiklopediyanı təsvir etdi.

Ənənəvi çap formatlı ensiklopediyalar zaman və məkan baxımından məhdudiyyətlərə malikdir. Lakin rəqəmsal ensiklopediyalar bu məhdudiyyətləri aradan qaldıraraq, geniş auditoriyaya istənilən vaxt və məkanda informasiya təqdim etmək imkanını yaradır. İnternetə çıxışı olan hər kəs sadə bir kliklə geniş məlumatlara çata bilir.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3494
Sifariş: 1377
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova